**“AFB BANK” AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**

**Hər birinin nominal dəyəri 100 (bir yüz) ABŞ dolları olan 100 000 (bir yüz min) ədəd faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazların**

# BAZA EMİSSİYA PROSPEKTİ

**Qeyd:** Azərbaycan Respublikasının Mərkəzi Bankı bu Baza Emissiya Prospektində olan məlumatların düzgünlüyünə görə məsuliyyət daşımır və nəzarət orqanı kimi onu qeydiyyata almaqla yerləşdirilən qiymətli kağızlara münasibətini ifadə etmir.

**2026**

Baza Emissiya Prospektinin tərtib edilməsində iştirak edən şəxslər və Baza Emissiya Prospektində təqdim edilmiş məlumatlara dair

# BƏYANAT

Biz, aşağıda imza edənlər,

1. Bu Baza Emissiya Prospektini tərtib etməzdən öncə Azərbaycan Respublikası Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27.01.2016-cı il tarixli, 05 saylı Qərarı ilə təsdiq edilmiş "Emissiya prospektinə və informasiya memorandumuna dair tələblər haqqında Qaydalar" ilə tanış olduğumuzu təsdiq edirik.
2. "AFB Bank" ASC-nin hər birinin nominal dəyəri 100 (bir yüz) ABŞ dolları olan 100 000 (bir yüz min) ədəd, faizli, sənədsiz, adlı, təmin edilməmiş istiqrazların Baza Emissiya Prospektinə daxil edilən bütün məlumatlar həqiqi faktlara əsaslanır, heç bir fakt gizlədilməmişdir və bunun üçün bütün lazımi tədbirlər görülmüşdür.

**"AFB Bank" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri:**

**Qənbərov Amid Mirzəyar oğlu** **22.05.2026-cı il**

**"AFB Bank" Açıq Səhmdar Cəmiyyətinin Maliyyə Departamentinin direktoru:**

**Muxtarov Əli Cavid oğlu** **22.05.2026-cı il**

# MÜNDƏRİCAT


XÜLASƏ ... 4

1. Xəbərdarlıqlar ... 4
2. Emitent haqqında məlumat ... 4
3. Qiymətli kağızlar haqqında məlumat ... 12
4. Risk faktorları ... 14
5. Təklif ... 15

İSTİQRAZLARIN EMİTENTİ BARƏDƏ TƏLƏB OLUNAN MƏLUMAT ... 17

6. Emitentin auditorlar barədə məlumat ... 17
7. Emitent barədə məlumat ... 18
8. Emitentin biznesinin icmalı ... 19
9. Digər təşkilatlarda iştirak ... 22
10. Tendensiyalar barədə məlumat ... 22
11. Gəlir proqnozu ... 23
12. Emitentin idarəetmə və nəzarət orqanları ... 23
13. Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan səhmdarlar: ... 26
14. Emitentin maliyyə məlumatları ... 27
15. Müqavilələr ... 38

BAZA EMİSSİYA PROSPEKTİ ÜZRƏ İSTİQRAZLAR HAQQINDA TƏLƏB OLUNAN MƏLUMAT ... 38

16. İstiqrazlar haqqında ümumi məlumat ... 38

# XÜLASƏ

## 1. Xəbərdarlıqlar

**1.1.** Aşağıdakı məzmunda xəbərdarlıq:

**1.1.1.** Bu sənəd baza emissiya prospektinin giriş hissəsidir;

**1.1.2.** İstiqrazlara investisiya etmək barədə hər hansı bir qərar investorun baza emissiya prospektini oxuduqdan sonra həyata keçirilməlidir;

**1.1.3.** Baza emissiya prospektində olan məlumatların yanlış, qeyri-dəqiq, ziddiyyətli olduğu və ya qiymətli kağızlara investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman baza emissiya prospektini hazırlamış şəxslər mülki məsuliyyəti daşıyırlar.

## 2. Emitent barədə məlumat

**2.1** **Emitentin tam adı**: "AFB Bank" Açıq Səhmdar Cəmiyyəti (bundan sonra "Emitent" və ya "Bank").

**2.2** **Emitentin olduğu yer və təşkilati-hüquqi forması, emitentin qeydiyyatda olduğu ölkə:** AZ1065, Bakı ş.,Yasamal ray., N.Nərimanov pr., ev. 206/466; Açıq Səhmdar Cəmiyyəti; Azərbaycan Respublikası.

**2.3** **Emitentə və onun əməliyyat apardığı sahələrə təsir edən ən vacib son tendensiyaların təsviri:** Azərbaycan iqtisadiyyatı son illərdə şaxələndirmə strategiyası və qeyri-neft sektorunun inkişafı istiqamətində əhəmiyyətli nailiyyətlər əldə etmişdir. Makroiqtisadi mühit sabit valyuta məzənnəsi, idarəolunan inflyasiya və artan valyuta ehtiyatları ilə xarakterizə olunur. Bank sektoru isə davamlı artım potensialı, daha şəffaf iş mühiti və maliyyə inklüzivliyinin artması ilə seçilir.

2024-cü ildə bank sektorunun aktivləri 53 milyard manata çataraq 7.8% artım nümayiş etdirmiş, kredit portfeli isə 27.5 milyard manata yüksəlmişdir. Bank sektorunda kreditlərin strukturuna nəzər yetirdikdə, biznes kreditlərinin 53.8% (14.8 milyard manat), istehlak kreditlərinin 30.7% (8.4 milyard manat), ipoteka kreditlərinin isə 15.5% (4.2 milyard manat) təşkil etdiyi müşahidə olunur. Vaxtı keçmiş kreditlərin payı azalmağa davam edərək 1.5% səviyyəsinə düşmüşdür. Eyni zamanda, bank sektorunun depozit portfeli 37.7 milyard manat olmaqla, ümumi öhdəliklərin 81.3%-ni təşkil etmişdir. Bank sektorunun maliyyə dayanıqlığı və gəlirliliyi də möhkəmlənmişdir. 2024-cü ilin yekunlarına əsasən, banklar 1.0 milyard manat xalis mənfəət əldə etmişdir. Bununla yanaşı, bank sektorunda kapital dayanıqlılığı artaraq, balans kapitalı 6.6 milyard manata çatmışdır.

Bank sektorunda 2025-ci ilin ilk beş ayı üzrə çalışanların sayı 0.1% artaraq 25 965 nəfər təşkil etmişdir. Sektor üzrə kredit portfeli 1% və ya 290 milyon manat artaraq 28.38 milyard manat olmuşdur. Eyni dövr üçün bankların cəmi aktivləri 56.54 milyard manat, cəmi öhdəlikləri 46.69 milyard manat, balans kapitalı isə 6.85 milyard manat olmuşdur. May ayında bankların cəmi aktivləri və cəmi öhdəlikləri müvafiq olaraq 3.6% və 4.3% artmışdır.

Azərbaycan Respublikasının Mərkəzi Bankı post-pandemiya dövründən etibarən pul

siyasətini qiymət sabitliyinin təmin olunmasına, inflyasiyanın proqnozlaşdırılan dəhliz daxilində sabitləşməsinə yönəltmişdir. Son illərdə pul siyasətinin ötürücülüyünün gücləndirilməsi, əməliyyat çərçivəsinin təkmilləşdirilməsi, bank sektorunda likvidliyin daha effektiv idarə olunması və maliyyə bazarlarının infrastruktur imkanlarının genişləndirilməsi istiqamətində ardıcıl islahatlar aparılmışdır. "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"na uyğun olaraq, pul siyasətinin əsas məqsədi illik inflyasiyanı 4±2% intervalında saxlamaq və bank sektorunun inklüzivliyini artırmaqdır.

Son 3 il ərzində isə, makro-iqtisadi stabil fon sektorun davamlı artımına gətirib çıxarmışdır. Hazırda sektorun aktivlərinin ümumi ÜDM-ə nisbəti 40%, qeyri-neft ÜDM-ə nisbəti isə 60% üzərindədir. Bu status-kvo beynəlxalq bençmarklar, o cümlədən qonşu ölkələrin göstəriciləri ilə müqayisədə sektorun artımı üçün hələ də böyük potensialın olduğunu təsdiqləyir. Son 2 ildə sektorun kredit portfeli ortalama 18% artım nümayiş etdirmişdir, istehlak kreditləri üzrə orta artım 24%, ipoteka kreditləri üzrə 20%, biznes kreditləri üzrə isə 14% olmuşdur. Bununla belə, istehlak kreditlərinə münasibətdə requlyatorun ehtiyatlı və tənzimləyici davranışı, habelə biznes sektorunda şəffaflığın davamlı artımı biznes kreditlərinin getdikcə daha ardıcıl və dinamik artımını proqnozlaşdırmağa əsas verir. Bu kontekstdə, qeyd edilməlidir ki:

- AR-nın 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasında: kredit portfelinin hər il 10%, o cümlədən biznes kreditlərinin hər il 6%, MKOB kreditlərinin hər il 15% artımı;
- AR Mərkəzi Bankının elan etdiyi 2024-2026-cı illərdə maliyyə sektorunun inkişafı Strategiyasında: biznes kreditlərinin məbləğinin 16.5 milyard AZN-ə çatdırılması hədəflənir.

Rəqəmsal bankçılıq sahəsində də sürətli artım müşahidə olunur. Fintech həllərinin geniş yayılması bank xidmətlərinin transformasiyasını sürətləndirərək, müştəri təcrübəsini dəyişdirməyə davam edir. Mobil bankçılıq və onlayn kreditləşmənin inkişafı, bank sektorunun biznes modelinə də təsir edərək, xidmətlərin daha çevik və əlçatan olmasını təmin edir. Ödəniş infrastrukturunun inkişafı və müştərilərin vərdişlərinin transformasiyası nəticəsində son 4 il ərzində müştəri hesablardan aparılan köçürmələrin strukturunda elektron bankçılığın payı məbləğcə 57%-dən 76%-ə, sayca isə 93%-dək yüksəlmişdir. Ödəniş infrastrukturunda digər dinamik dəyişikliklər isə kartlarla əməliyyatlarda müşahidə edilmişdir. Bu seqmentin artımı requlyatorun islahatları ilə yanaşı, iqtisadiyyatın şəffaflaşması və texnoloji həllərin cəlbediciliyi ilə əlavə təkan almışdır. Son 4 il ərzində kart əməliyyatlarının strukturunda nağdsız əməliyyatların payı məbləğcə 22%-dən 62%-dək, sayca isə 56%-dən 89%-dək artmışdır. Eyni dövr ərzində ölkədə ödəniş kartlarının sayı isə 8.9 milyon ədəddən 18.1 milyonadək artmışdır. Bu kartlarla POS-terminalalrda aparılan əməliyyatların həcmi 6 dəfə artmış, həmin əməliyyatların 93%-i təmassız formatda icra olunmuşdur

Bank sektorunun inkişafı ilə bağlı tətbiq edilən yeni tənzimləmə qaydaları, məsələn, kapital adekvatlığı və likvidlik normaları, Bankın əməliyyat siyasətinə təsir etməkdə davam edir. Kibertəhlükəsizlik və informasiya texnologiyalarına artan risklər Bankın IT infrastrukturunun davamlı inkişafını və müştəri məlumatlarının qorunmasını prioritet məsələlərdən biri kimi ön plana çıxarır.

Bankın rəhbərliyi cari iqtisadi dəyişiklikləri izləyir və fəaliyyətin davamlılığını təmin etmək üçün ehtiyat tədbirləri görməkdədir. Bank mövcud likvidlik mövqeyini dayanıqlı fəaliyyət üçün yetərli hesab edir. Eyni zamanda, Bank investorların və istiqraz sahiblərinin maraqlarını qorumaq və onların etimadını artırmaq məqsədilə risklərin idarə edilməsi, kapital dayanıqlılığı və gəlirliliyin optimallaşdırılması istiqamətində tədbirlər həyata keçirməkdə davam edəcəkdir.

**Rəqəmsallaşmanın tətbiqi**

Emitent ölkəmizdə fəaliyyət göstərən ən köklü banklardan biridir. Bankımız bazar payının artırılmasını, maliyyə sabitliyini və insan kapitalının inkişafını əsas strateji istiqamətlər olaraq götürüb. Strateji baxışımız göstərilən istiqamətlərə əsaslanaraq maliyyə sektorunda lider mövqelərdə olmağı, müştərilərimiz, səhmdarlarımız və geniş ictimaiyyət üçün daha çox dəyər yaratmağı hədəfləyir. Əsas strateji istiqamətlərimiz aşağıdakılardır.

**Rəqəmsal transformasiyalar**:

İT infrastrukturunun geniş modernizasiyası, yeni, çevik və müasir tələblərə cavab verən "core banking" sistemlərinin tətbiqi, buna uyğun olaraq yeni proqram təminatları və databaza sistemlərinin tətbiqi nəticəsində müştərilərimizə çevik, fasiləsiz və daha keyfiyyətli xidmət göstərməyi hədəfləyirik.

**Bazar payının artırılması və müştəri mərkəzli böyümə:**

Bankımız pərakəndə, mikro, KOS və bütün əsas istiqamətlər üzrə bazar payını aktiv şəkildə artırmağı planlayır. Depozitlər, köçürmələr, kreditlərin verilməsi və digər sahələr üzrə tam olaraq mobil tətbiq üzərindən və onlayn olaraq xidmət göstərilməsi nəticəsində bankımızı müştərilərə daha əlçatan edirik. Eyni zamanda rəqabətli keşbek kampaniyaları və xüsusi müştəri ehtiyaclarına uyğunlaşdırılmış xidmətlər nəticəsində bankımızı daha cazibədar edərək daha çox müştəri cəlb etməyi planlayırıq. Mikro və KOS seqmenti üçün daha çox məhsullar təklif etməyi və xüsusi olaraq bu seqment üçün kart məhsulları yaratmağı planlayırıq.

**Gəlirlərin diversifikasiyası:**

Bank növbəti illərdə gəlir mənbələrini diversifikasiya etməyi və ənənəvi gəlir mənbələrindən asılılığını azaltmağı nəzərdən keçirir. Bankın əsas gəlir mənbəyi olan faiz gəlirləri tədricən balanslaşdırılaraq, komissiyalar, xəzinədarlıq və qiymətli kağızların gəlirlərinin artırılması prioritet təşkil edəcək.

**Dayanıqlılıq və sosial məsuliyyət:**

Məsuliyyətli maliyyə qurumu olaraq Bank dayanıqlılığı və korporativ sosial məsuliyyəti davamlı olaraq aktiv şəkildə təşviq edir. Əməliyyatların ətraf mühitə təsirini azaltmaq üçün dekarbonizasiya təşəbbüslərini dəstəkləməyi və bankın fiziki infrastrukturunda enerji istifadəsini optimallaşdırmağı hədəfləyirik.

Regionda gedən münaqişələr, qonşu dövlətlərə və ticarət tərəfdaşlarımıza olan sanksiyalar, enerji qiymətlərindən asılılıq və bu qiymətlərin volatilliyi əsas risk faktorlarıdır. Bu risklər, eyni zamanda yüksələn inflyasiya bankların gəlir marjasına və aktivlərinin keyfiyyətinə təsir göstərə bilər.

**2.4. Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri. Emitentin qrupda olan şəxslərdən asılı olduğu təqdirdə bu barədə qeyd:** Emitentin hər hansı hüquqi şəxsdə payı yoxdur. Həmçinin Emitentin qrupda olan şəxslərdən asılılığı ilə bağlı hal da mövcud deyil.

2.5. **Gəlir proqnozunun mövcud olduğu zaman bu barədə qeyd:** Mövcud deyil.

2.6. **Audit edilmiş maliyyə məlumatlarına dair auditorun rəyinin qısa təsviri:** Emitentin son maliyyə illəri üzrə maliyyə hesabatları "Baker Tilly Audit Azerbaijan" QSC audit şirkəti tərəfindən yoxlanılmışdır.

**Audit şirkətinin adı:** "Baker Tilly Audit Azerbaijan" QSC

**Rəyin əhatə etdiyi dövr:** 1 yanvar 2024 – 31 dekabr 2024

**Rəyin qısa təsviri aşağıdakı kimidir:**

Kənar audit rəyinə əsasən, əlavə edilmiş maliyyə hesabatları Bankın 31 dekabr 2024-cü il tarixinə olan maliyyə vəziyyətini, habelə göstərilən tarixdə başa çatmış il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Mühasibat Uçotu Beynəlxalq Standartları Şurası tərəfindən dərc olunan MHBS Mühasibat Uçotu Standartlarına (MHBS Mühasibat Uçotu Standartları) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

**Audit şirkətinin adı:** "Baker Tilly Audit Azerbaijan" QSC

**Rəyin əhatə etdiyi dövr:** 1 yanvar 2025 – 31 dekabr 2025

**Rəyin qısa təsviri aşağıdakı kimidir:**

Kənar audit rəyinə əsasən, əlavə edilmiş maliyyə hesabatları Bankın 31 dekabr 2025-ci il tarixinə olan maliyyə vəziyyətini, habelə göstərilən tarixdə başa çatmış il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası tərəfindən dərc olunmuş MHBS Mühasibat Uçotu Standartlarına ("MHBS Mühasibat Uçotu Standartları") uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

2.7. **Son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə vəziyyətinin əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir. Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin fəaliyyətində dəyişikliyin olub-olmaması barədə məlumat. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir.**

| | **2023 (audit olunmuş)** | **2024 (audit olunmuş)** | **2025 (audit olunmuş)** |
|---|---|---|---|
| Faiz gəlirləri | **23 212** | **23 993** | **27 471** |
| Faiz xərcləri | **(5 102)** | **(5 677)** | **(9 484)** |
| **Xalis faiz gəliri** | **18 110** | **18 316** | **17 987** |
| Maliyyə aktivləri üzrə kreditin zərər xərci | **1 380** | **(241)** | **1 013** |
| Qeyri-faiz gəliri | **9 200** | **8 315** | **9 099** |
| Qeyri-faiz xərcləri | **(18 665)** | **(20 330)** | **(25 290)** |
| **Vergilər ödənilənədək mənfəət (zərər)** | **10 025** | **6 060** | **2 809** |
| Mənfəət vergisi xərci | **(2 455)** | **(1 952)** | **(615)** |
| **İl üzrə mənfəət** | **7 570** | **4 108** | **2 194** |

| | | | |
|---|---|---|---|
| | | | |
| İl üzrə digər ümumi gəlir, vergidən sonra | **0** | **0** | **0** |
| **İl üzrə cəmi ümumi gəlir** | **7 570** | **4 108** | **2 194** |
| **Cəmi aktivlər** | **328 710** | **292 283** | **417 630** |
| Cəmi öhdəliklər | **248 246** | **215 282** | **342 543** |
| **Cəmi kapital** | **80 464** | **77 001** | **75 087** |
| **Cəmi öhdəliklər və kapital** | **328 710** | **292 283** | **417 630** |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | **66 041** | **49 037** | **71 938** |

**2025-ci və 2026-cı illərin 3 ayı üzrə müqayisəli maliyyə göstəriciləri aşağıda qeyd edilir:**

| | **2025-ci ilin 3 ayı (audit olunmamış)** | **2026-cı ilin 3 ayı (audit olunmamış)** |
|---|---|---|
| Faiz gəlirləri | **5 725** | **11 054** |
| Faiz xərcləri | **(1 423)** | **(5 231)** |
| **Xalis faiz gəliri** | **4 302** | **5 823** |
| Maliyyə aktivləri üzrə kreditin zərər xərci | **1 234** | **802** |
| Qeyri-faiz gəliri | **2 110** | **2 360** |
| Qeyri-faiz xərcləri | **(5 324)** | **(7 857)** |
| **Vergilər ödənilənədək mənfəət (zərər)** | **2 322** | **1 128** |
| Mənfəət vergisi xərci | | |
| **İl üzrə mənfəət** | **2 322** | **1 128** |
| İl üzrə digər ümumi gəlir, vergidən sonra | | |
| **İl üzrə cəmi ümumi gəlir** | **2 322** | **1 128** |
| **Cəmi aktivlər** | **299 585** | **482 008** |
| Cəmi öhdəliklər | **220 052** | **402 939** |
| **Cəmi kapital** | **79 533** | **79 069** |
| **Cəmi öhdəliklər və kapital** | **299 585** | **482 008** |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | **30 823** | **44 773** |

Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından sonra emitentin fəaliyyətində dəyişiklik olmamışdır.

**2.8. Emitentin ödəmə qabiliyyətinin qiymətləndirilməsinə təsir edən ən son hadisələr:**

2025-ci ildə beynəlxalq reytinq agentliyi Fitch Ratings tərəfindən "AFB Bank" ASC-yə uzunmüddətli emitent defolt reytinqi (IDR) üzrə "B" reytinqi və "Stabil" proqnoz verilmişdir. Agentlik tərəfindən Bankın kapital adekvatlığı, likvidlik mövqeyi və davamlı gəlirlilik göstəriciləri qənaətbəxş qiymətləndirilmişdir. "Stabil" proqnoz Bankın yaxın və orta müddətli dövrdə maliyyə dayanıqlığını qoruyub saxlayacağına dair gözləntiləri əks etdirir.

Bundan əlavə, Emitent 2025-ci ildə istiqraz emissiyasını uğurla həyata keçirmişdir. Emissiyanın ümumi həcmi 5 000 000 (beş milyon) manat təşkil etmiş, hər bir istiqrazın nominal dəyəri 100 manat müəyyən edilmişdir. İstiqrazların tədavül müddəti 24 ay, illik gəlirlilik dərəcəsi isə 13% təşkil etmişdir. Qeyd olunan istiqraz emissiyası investorlar tərəfindən yüksək maraqla qarşılanmış və emissiya tam həcmdə yerləşdirilmişdir. Bakı Fond Birjasının Listinq Komitəsinin qərarı ilə istiqrazların ticarətə buraxılmasına icazə verilmiş, abunə yazılışı qısa müddət ərzində uğurla başa çatdırılmışdır. Bu hal Emitentə olan investor etimadının və onun maliyyə dayanıqlığının göstəricilərindən biri hesab olunur.

Emitentin ödəmə qabiliyyətinə və maliyyə dayanıqlığına təsir edən əsas amillərdən biri də effektiv likvidlik idarəetmə sistemidir. Likvidlik riski adi və ya fövqəladə şəraitdə Bankın ödəniş tarixində öhdəliklərini yerinə yetirə bilməməsi riskidir. Bu riski məhdudlaşdırmaq məqsədilə Bank müxtəlif maliyyələşmə mənbələrindən vəsait cəlb etməklə yanaşı, gündəlik əsasda pul vəsaitlərinin hərəkətini və likvidlik vəziyyətini monitorinq edir. Pul vəsaitlərinin daxilolmalarında hər hansı gözlənilməz mənfi dəyişiklik baş verdiyi halda likvidlik vəziyyətinin operativ şəkildə tənzimlənməsi məqsədilə Bank yüksək likvid və diversifikasiya olunmuş aktiv portfelinə malikdir.

Bank likvidlik vəziyyətinə Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən müəyyən edilmiş prudensial normativlər əsasında nəzarət edir. Mərkəzi Bank tərəfindən banklar üçün müəyyən edilmiş minimum 30% ani likvidlik əmsalı tələbi ilə müqayisədə Emitentin ani likvidlik əmsalı 31 dekabr 2025-ci il tarixinə 50.55%, 31 dekabr 2024-cü il tarixinə isə 57.81% təşkil etmişdir. Eyni zamanda, likvidliyin örtülmə əmsalı (LCR) 31 dekabr 2025-ci il tarixinə 140.4%, 31 dekabr 2024-cü il tarixinə isə 304.8% olmuşdur ki, bu da Mərkəzi Bankın müəyyən etdiyi minimum 100% normativ göstəricidən əhəmiyyətli dərəcədə yüksəkdir.
Yuxarıda qeyd olunan göstəricilər Bankın cari və potensial öhdəliklərini vaxtında icra etmək qabiliyyətinin yüksək səviyyədə olduğunu, habelə Bankın ödəmə qabiliyyətinə mənfi təsir göstərə biləcək və likvidlik mövqeyində kəskin pisləşməyə səbəb olacaq hər hansı hadisənin baş vermədiyini göstərir.

Qeyd olunanlarla yanaşı Emitentin ödəmə qabiliyyətinə təsir edən digər amilləri aşağıdakı kimi qruplaşdırmaq olar:

**Makroiqtisadi mühit**

İnflyasiya dinamikası (2023–2025 trendi):

2023-cü ildə qlobal təchizat şoklarının zəifləməsi fonunda inflyasiya region üzrə tədricən stabilizasiya mərhələsinə daxil oldu. 2024-cü ildə inflyasiyanın orta səviyyəsi 2.0–2.2% civarında formalaşdı. 2025-ci ildə isə enerji qiymətlərinin sabit qalması, ərzaq və xidmət komponentinin azalma trendi fonunda illik inflyasiya 2–3%

diapazonunda proqnozlaşdırılır. Aşağı inflyasiya mühiti bank sektorunda kredit keyfiyyətinin yaxşılaşmasına, real gəlirlərin artmasına və ödəmə qabiliyyətinin möhkəmlənməsinə şərait yaradır.

Məzənnə sabitliyi:

AZN/USD məzənnəsi 2017-ci ildən bəri olduğu kimi 2024–2025 illərində də 1.70 səviyyəsində sabit saxlanılır. Valyuta riskləri əsasən xarici valyutalara qarşı (EUR, TRY və s.) məzənnə dəyişkənliyindən qaynaqlanır. ABŞ FED-in faiz siyasətində qeyri-müəyyənlik dünya bazarında risk iştahını azalda və enerji ixracatçılarında volatilliyi artıra bilər.

**Enerji sektoru və ixrac**

Hidkarbon qiymətləri və ixrac perspektivi:

Avropada enerji təhlükəsizliyi gündəliyi fonunda Azərbaycanın qaz ixracına olan struktur tələbat 2024–2025-ci illərdə də yüksək olaraq qalır. 2024-cü ildə 12.9 bcm olan ixrac həcminin 2025-ci ildə 13–14 bcm diapazonuna yüksəlməsi gözlənilir. Bu dinamika ölkənin büdcə gəlirlərində sabitlik yaradır, bank sektorunda isə likvidlik mühitinə və kredit portfellərinin dayanıqlığına müsbət təsir edir.

COP29-un Bakıda keçirilməsi (2024 nəticələri–2025 effektləri):

2024-cü ildə COP29-un ölkədə keçirilməsi yaşıl maliyyə gündəliyinin sürətlənməsinə səbəb oldu. 2025-ci ildə bank sektoru üçün üç əsas trend formalaşır - yaşıl layihələrin maliyyələşdirilməsinə yeni imkanlar (yaşıl kreditlər, ESG standartlarına uyğun layihələr), karbon izinin azaldılması üzrə təşəbbüslər, maliyyə institutlarında ESG hesabatlılığının gücləndirilməsi. Bu faktorlar bankların risk idarəetməsi, kapital planlaşdırılması və korporativ idarəetmə sahəsində yeni tələblər yaradır.

**Geosiyasi risklər**

2023-cü ildə Qarabağda anti-terror əməliyyatından sonra regionda yaranan sabitlik 2024–2025-ci illərdə də qorunur. Bununla yanaşı İranla münasibətlərin regional təsiri, qlobal səviyyədə ABŞ - Çin rəqabətinin artması, orta Şərqdə enerji marşrutlarına dair risklər region iqtisadiyyatına dolayı təsirlər göstərə bilər. Bank sektoru bu mühitdə kapital mövqelərinin gücləndirilməsi, risklərin diversifikasiyası və konservativ likvidlik idarəçiliyi ilə sabitliyi qorumağa davam edir.

Bank öz fəaliyyətində makroiqtisadi, geosiyasi və digər bazar risklərini nəzərə alaraq, risklərin tənzimlənməsini, kapitalın qorunub artırılmasını, portfellərin diversifikasiyasını və digər fəaliyəətlərini bu risklərə uyğunlaşdırmağa çalışır.

**2.9. Emitentin əsas fəaliyyətlərinin təsviri:**

“AFB Bank” ASC bank fəaliyyəti göstərməsi üçün 28 noyabr 2008-ci il

tarixində 253 saylı lisenziyaların mərkəzi reyestrinə daxil edilmişdir.

Emitentin fəaliyyət sahəsi ikisi region filialı (Gəncə və Qəbələ) olmaqla, ümumilikdə 8 filial və 4 şöbə ilə xidmət göstərir. İstehlak bazarındakı payı çox olmaqla, əsas fəaliyyət istiqamətləri aşağıdakı kimidir:

- Müştərilərdən tələbli və müddətli depozitlərin cəlb edilməsi
- İstehlak, ipoteka, Mikro/KOS və korporativ kreditlərin verilməsi
- Fiziki və hüquqi şəxslərin, o cümlədən bank müxbir hesablarının açılması
- Klirinq, hesablaşma və kassa xidmətləri
- Debit və kredit kartların buraxılması
- Valyuta alınıb-satılması
- Valyuta mübadiləsi əməliyyatlarının həyata keçirilməsi
- Qarantiyaların verilməsi, akkreditivlərin açılması
- Sənədlər, pul vəsaitlərini və digər qiymətlilərin saxlanca qəbul edilməsi
- Bankın fəaliyyətinə uyğun olan digər xidmətlər. Azərbaycan Respublikasının iqtisadiyyatının və ölkədə bank işinin inkişafına dəstək göstərmək;
- Bank, maliyyə və sərmayə qoyuluşu sahəsində xidmətlər göstərmək;
- Sahibkarlıq fəaliyyətinin inkişafına yönəlmiş yerli və xarici sərmayələrin və kreditlərin cəlb edilməsini təmin etmək;
- Öz vəsaitlərini, hüquqi və ayrı-ayrı fiziki şəxslərdən cəlb olunmuş vəsaitlərin Azərbaycan İqtisadiyyatının və Emitentin öz fəaliyyətinin inkişafına yönəltmək;
- Azərbaycan Respublikasının Qanunvericiliyinə, Emitentin Səhmdarlarının və müştərilərinin maraqlarına zidd olmayan Bank lisenziyasında nəzərdə tutulmuş maliyyə, kredit və digər sahibkarlıq fəaliyyətini həyata keçirmək.

Emitent Azərbaycan Respublikasının Qanunvericiliyi və öz lisenziyasına əsasən aşağıdakı fəaliyyət növləri ilə məşğul olur:

- Tələbli və müddətli depozitlərin (əmanətlərin) və digər qaytarılan vəsaitlərin cəlb edilməsi;
- Kreditlərin (təminatlı və/və ya təminatsız) verilməsi, o cümlədən istehlak və ipoteka kreditləşdirilməsi, reqres hüququ ilə və ya belə hüquq olmadan faktorinq, forfeytinq, lizinq xidmətləri və digər kreditləşdirmə növləri;
- Fiziki və hüquqi şəxslərin hesablarının, o cümlədən bankların müxbir hesablarının açılması və aparılması;
- Klirinq, hesablaşma-kassa xidmətləri, pul vəsaitinin, qiymətli kağızların və ödəniş vasitələrinin köçürülməsi üzrə xidmətlər göstərilməsi;
- Ödəniş vasitələrinin (o cümlədən kredit və debet kartları, yol çekləri və bank köçürmə vekselləri) buraxılması;
- Öz hesabına və ya müştərilərin hesabına maliyyə vasitələrinin (o cümlədən çeklərin, köçürmə veksellərinin, borc öhdəliklərinin), qiymətli metalların və qiymətli daşların, valyuta və faiz vasitələrinin, satın alınması və satılması;
- Öz hesabına və ya müştərilərin hesabına valyuta mübadiləsi əməliyyatlarının həyata keçirilməsi;
- Öhdəliklərin icrasına təminatların, o cümlədən qarantiyaların verilməsi və öz hesabına və ya müştərilərin hesabına akkreditivlərin açılması;
- Maliyyə müşaviri, maliyyə agenti və ya məsləhətçisi xidmətlərinin göstərilməsi;

- Kreditlərə və kredit qabiliyyətinin yoxlanılmasına dair informasiya verilməsi və xidmətlər göstərilməsi;
- Sənədləri və qiymətliləri, o cümlədən pul vəsaitlərini saxlanca qəbul etmək (xüsusi otaqlarda və ya seyf qutularında saxlamaq);
- Qiymətlilərin, o cümlədən banknotların və sikkələrin inkassasiya edilməsi və göndərilməsi.

**2.10. Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətinin xüsusiyyəti:** Emitentin ümumi fəaliyyətinə nəzarəti Səhmdarların Ümumi Yığıncağı və Müşahidə Şurası həyata keçirir. Azərbaycan Respublikasının "Banklar haqqında" Qanununun 40.3-cü bəndinə əsasən bankların aidiyyəti şəxslərə digər şəxslərdən fərqli olaraq güzəştli şərtlərlə bank xidmətlərinin göstərilməsi qadağandır. Eyni zamanda, Mülki Məcəllənin 49-1-ci maddəsində aidiyyəti şəxslərlə əqdlərin bağlanması qaydası nəzərdə tutulmuşdur.

Ümumi yığıncaqlararası dövrdə Emitentin idarə olunmasına və işinə nəzarəti Səhmdarların Ümumi Yığıncağı tərəfindən Emitentin səhmdarlarından və ya kənar şəxslərdən 3 (üç) il müddətinə 3 (üç) nəfərdən az olmamaqla, tək sayda üzvlərdən təyin edilmiş Müşahidə Şurası həyata keçirir.

Mühüm iştirak payına sahib olan şəxslər və payları barədə məlumat:
İsmayılov Hikmət Əbuzər oğlu – 99,6406%

Səhmdarların Ümumi Yığıncağının səlahiyyətləri və iclasların keçirilməsi qaydası "Banklar haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

## 3. Qiymətli kağızlar haqqında məlumat

**3.1. İstiqrazların növü:** Faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazlar

**3.2. İstiqrazların valyutası**: ABŞ dolları

**3.3. İstiqrazların təsbit olunan məhdudiyyətlər**: Mövcud deyil

**3.4. İstiqrazların təsbit olunmuş hüquqların təsviri**:

- Emitentin ləğvi, yaxud yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan olunduqda, əmanətçilərin və bankın digər kreditorlarının tələbləri tam ödənildikdən sonra istiqrazların nominal dəyərinin və həmin nominal dəyərə hesablanmış, lakin ödənilməmiş faizləri tələb etmək;
- İstiqrazların tədavül müddəti bitdiyi vaxtda istiqrazın nominal dəyərini emitentdən almaq;
- İstiqrazın nominal dəyərindən illik 7.2 (yeddi tam onda iki) faiz olmaqla (birinci buraxılış üzrə), istiqrazların tədavül müddəti ərzində faiz gəliri almaq;
- İstiqrazla təsdiqlənmiş hüquqları alqı-satqı, bağışlama və s. mülki hüquqi müqavilələr bağlamaq yolu ilə ötürmək;
- İstiqrazları girovla və qanunvericiliklə nəzərdə tutulmuş digər öhdəliklərlə yüklü etmək. Belə yüklü etmə qiymətli kağızlar üzrə depozitar sistemdə qeydiyyata alındığı andan qüvvəyə minir;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

**3.5. İstiqrazların faiz dərəcəsi. İstiqrazların faizlərinin və dəyərinin ödənilmə tarixi**

**və müddəti. Faiz dərəcəsi müəyyən olunmadığı halda istiqrazın faiz dərəcəsinin nəyin əsasında hesablanması üsulu, həmin əsas barədə məlumat və onun müəyyən olunmasının mənbələri:** Birinci buraxılış üzrə istiqrazların illik faiz dərəcəsi 7.2 (yeddi tam onda iki) faiz təşkil edir. Birinci buraxılış istiqrazlar üzrə ödənilməli olan faizlər istiqrazların tədavül müddətində (birinci buraxılışın yerləşdirilmə tarixindən etibarən 18 (on səkkiz) ay müddətində ildə günlərin sayı 360 ( üç yüz altmış) və bir ayda günlərin sayı 30 gün olaraq götürülməklə) hər 90 (doxsan) gündən bir ödənilir. Ödəniş tarixi qeyri-iş gününə təsadüf etdikdə, faiz ödənişi növbəti iş günü ödənilir. Ödənişlər bank hesabları vasitəsilə nağdsız qaydada həyata keçirilir. İstiqraz üzrə faizlərin hesablanmasına yerləşdirmə günündən etibarən başlanacaqdır. İstiqrazların nominal dəyəri sonuncu kupon ödənişi ilə birlikdə ödəniləcəkdir.

Növbəti buraxılış(lar) (tranş(lar)) üzrə şərtlər Emitentin müvafiq idarəetmə orqanının qərarı ilə müəyyən olunacaqdır.

3.6. **Təmin edilmiş istiqrazlar üzrə təminatın təsviri və şərtləri:** İstiqrazlar təmin edilməmişdir.

3.7. **İstiqrazların geri satın alınma şərtləri**: Bu Baza Emissiya Prospekti ilə nəzərdə tutulmuş istiqraz emissiyası çərçivəsində Emitentin istiqrazları tədavül müddəti ərzində geri satın almaq hüququndan istifadə etməsi nəzərdə tutulmur və bu istiqamətdə hər hansı öhdəliyi mövcud deyil.

3.8. **Gəlirin qısa formada hesablama metodunu göstərməklə gəlir göstəricisi:** Birinci buraxılış üzrə istiqrazların kupon gəlirliyi illik 7.2 (yeddi tam onda iki) faiz təşkil edir. İstiqrazlar üzrə toplanmış faizlərin hesablanması aşağıdakı düstura uyğun olaraq aparılır:

$$TF = \frac{\left(\frac{N * D * G}{360}\right)}{100}$$

**Burada:**

**TF –** Bir istiqraz üzrə toplanmış faizlər

**N –** Bir istiqrazın nominal dəyəri: 100 (bir yüz) ABŞ dolları

**D –** İstiqrazların illik faiz dərəcəsi: 7.2 (yeddi tam onda iki)

**G –** İstiqrazlar üzrə faiz ödənişi dövrünün müddəti: 90 (doxsan) gün

Beləliklə, hər bir istiqraz üzrə bir faiz dövrü üçün ödəniləcək məbləğ 1.80 (bir ABŞ dolları, səksən sent) ABŞ dolları təşkil edir.

Ödəniş tarixi qeyri-iş gününə təsadüf etdikdə, faiz ödənişi növbəti iş günü icra edilir və həmin günlərə faiz hesablanmır.

Növbəti buraxılış(lar) (tranş(lar)) üzrə şərtlər Emitentin müvafiq idarəetmə orqanının qərarı ilə müəyyən olunacaqdır.

3.9. **İstiqrazların mülkiyyətçisinin təmsilçisinin adı**: Təmsilçi nəzərdə tutulmamışdır.

3.10. **Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** İstiqrazlar təmin edilməmiş formada buraxılır.

**3.11. İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:** İstiqrazların kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi baza emissiya prospekti və hər bir istiqraz buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra "Bakı Fond Birjası" QSC-nin ticarət platforması vasitəsilə həyata keçiriləcəkdir. Bunun üçün istiqraz buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra ilk növbədə Listinq Komitəsindən ticarətə qəbul üzrə icazə alınacaq, daha sonra istiqrazların listinqə daxil edilməsi ilə bağlı müraciət ediləcəkdir.

Emissiya prosesində iştirak edən "Bakı Fond Birjası" QSC (bundan sonra-BFB) yeni emissiya edilmiş istiqrazların listinqə daxil edilməsi, hərrac vasitəsilə istiqrazların ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir.

BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti"-ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

- dövlət qiymətli kağızları bazarı;
- korporativ qiymətli kağızlar bazarı;
- törəmə maliyyə alətləri bazarı.

Ticarətə buraxılmanın şərtləri "Bakı Fond Birjası" QSC-də qiymətli kağızların ticarətə qəbulu, listinqə alınması, listinqdə saxlanılması və delistinqi Qaydaları" və "Bakı Fond Birjasında qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə ticarətin təşkili və keçirilməsi" Qaydaları əsasında tənzimlənir.

BFB-nin fəaliyyəti AR Mülki Məcəlləsi, Qiymətli Kağızlar Bazarı haqqında AR Qanunu, Azərbaycan Respublikasının digər hüquqi-normativ aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

## 4. Risk faktorları

**4.1. Təklif olunan qiymətli kağızlarla əlaqəli bazar risklərini qiymətləndirmək üçün zəruri olan risk faktorları:**

- Valyuta riski – valyuta məzənnəsinin kurslarının əlverişsiz şəkildə dəyişməsindən yaranan itki riski;
- Faiz riski – faiz dərəcələrinin mənfi dəyişməsindən yaranan itki riski;
- İnflyasiya riski – pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi ilə bağlı risk;
- Likvidlik riski – müəyyən anda aktivlərin satışı və ya alışı ilə bağlı çətinliklərin yaranması mümkünlüyü;
- Əməliyyat riski – daxili proseslər, sistem pozuntuları, insan faktoru və xarici hadisələrdən meydana gələn itki riskləri;
- Hesablaşma və kontragent riski – hesablaşmanın vaxtından gec aparılması və aparılmasından əvvəl kontragentin öhdəliklərini icra edə bilməməsi səbəbindən meydana gələn itki riskləri;

- Kredit riski – borcalanın öhdəliklərini yerinə yetirə bilməməsindən meydana gələn itki riskləri;
- Təbii – insan fəaliyyətindən asılı olmayan risk (təbii fəlakət, zəlzələ, daşqın, tufan, qasırğa, ildırım və s. risklər).

İstiqrazlarla bağlı maliyyə riskləri – o cümlədən valyuta, faiz, inflyasiya, likvidlik, əməliyyat, kredit, hesablaşma-kontragent və təbii risklər – investorun maliyyə maraqlarına mənfi təsir göstərə biləcək halları əhatə edir. Bu risklər istiqrazların bazar dəyərinin azalmasına, onların təkrar bazarda realizə olunma imkanlarının məhdudlaşmasına, eləcə də emitentin öhdəliklərini vaxtında və tam yerinə yetirə bilməməsi ehtimalının artmasına səbəb ola bilər. Həmçinin emitentin maliyyə vəziyyəti və qiymətli kağızlar bazarındakı ümumi iqtisadi göstəricilər istiqrazların gəlirliliyinə və likvidliyinə bilavasitə təsir göstərir. Bu səbəbdən, investorlar tərəfindən mövcud risklərin hərtərəfli qiymətləndirilməsi hüquqi və maliyyə baxımından zəruri hesab olunur.

**4.2. İstiqraz emissiyası zamanı emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsiredə bilən risk faktorları:**

- İqtisadi kiçilmə – İnflyasiya, faiz, valyuta riskləri kimi amillərdən yaranan iqtisadi qeyri-sabitlik ölkə iqtisadiyyatında kiçilməyə səbəb ola bilər. Bu zaman ölkədə alıcılıq qabiliyyəti aşağı düşə və bank məhsullarının satışı üzərində mənfi təsir yarada bilər.
- Təbii fəlakətlərin baş verməsi (fors-major hallar) – Təbii fəlakətlərin baş verməsi də öz növbəsində iqtisadi şok yaradaraq ölkədə alıcılıq qabiliyyətinin aşağı düşməsi, bankın əməliyyatlarına zərər verə biləcək sistem pozuntuları, kontragentlərin öz öhdəliklərini yerinə yetirə bilməməsi ilə nəticələnə bilər.
- Emitentin fəaliyyətinə birbaşa və dolayı yolla təsir edə bilən qərarlar – İnflyasiyanın tənzimlənməsi məqsədi ilə ARMB sərtləşdirilmiş monetar siyasəti alətlərindən istifadə edərək uçot faiz dərəcəsinin, məcburi-ehtiyyat normasının kəskin artırılması ilə bağlı qərar qəbul edə bilər. Bu kimi sərtləşdirilmiş monetar siyasətin davam etməsi bankın likvidliyinə mənfi təsir yarada bilər.

## 5. Təklif

**5.1. Təklifin səbəbi mənfəətin əldə edilməsi və ya bəzi risklərin sığortalanmasından fərqlioldugu təqdirdə emissiyanın səbəbi:** Emissiyanın məqsədi alternativ maliyyə resurslarının cəlb edilməsi yolu ilə Emitentin fəaliyyətinin genişləndirilməsi, kredit portfelinin artırılması yolu ilə mənfəətin əldə edilməsidir.

**5.2. Təklifin şərtlərinin təsviri:** Baza emissiya prospekti Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra hər bir istiqraz buraxılışı üzrə yerləşdirmənin başlanma və başa çatma tarixlərinin təyin olunma qaydası Yekun Şərtlərdə təqdim olunacaq. Yekun Şərtlər qeydiyyata alındıqdan sonra abunə yazılışı 1 (bir) ay ərzində başlanacaq, abunə yazılışı isə 14 (on dörd) gün ərzində həyata keçiriləcəkdir. Abunə yazılışı başa çatdıqdan sonra istiqrazların yerləşdirilməsinə 5 (beş) iş günü ərzində başlanılacaq və istiqrazların yerləşdirilməsi başlandığı tarixdən etibarən 7 (yeddi) iş günü ərzində həyata keçiriləcəkdir. Ümumi kağızların yerləşdirilməsi qanunvericilikdə nəzərdə tutulmuş qaydalara əsasən

tamamlanacaqdır. Abunə yazılışının başlanması və bitmə tarixləri, habelə istiqrazların yerləşdirilməsi tarixləri ictimaiyyətə Emitent, BFB-nin və buraxılışın anderrayteri "ABB-İnvest İnvestisiya Şirkəti" QSC-nin rəsmi internet saytları və ya media vasitəsilə açıqlanacaqdır.

Növbəti buraxılış(lar) (tranş(lar)) üzrə şərtlər Emitentin müvafiq idarəetmə orqanının qərarı ilə müəyyən olunacaqdır.

**5.3. Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması barədə ətraflı məlumat:**

**"Bakı Fond Birjası" QSC**. Emissiya prosesində iştirak edən Bakı Fond Birjası (BFB) yeni emissiya ediləcək istiqrazların listinqə daxil edilməsi, ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarlarda alqı-satqısı üçün mütəşəkkil ticarəti təşkil edir. İstiqrazların emissiyası prosesində "Bakı Fond Birjası" QSC-nin vəzifələri aşağıdakı kimidir:

- İstiqrazların listinqə daxil edilməsi;
- İstiqrazların hərrac vasitəsilə yerləşdirilməsi üçün müvafiq ticarət sisteminin təmin edilməsi;
- İstiqrazların təkrar bazar əməliyyatlarının aparılması üçün müvafiq ticarət sisteminin təmin edilməsi.

"Bakı Fond Birjası" QSC "AFB Bank" ASC-nin və digər emitentlərin emissiya etdiyi qiymətli kağızların onun ticarət platformasında ticarətə buraxılmasında marağı kommersiya xarakterlidir. "Bakı Fond Birjası" QSC qiymətli kağızların yerləşdirilməsi və tədavülündən, habelə qiymətli kağızları öz tarif cədvəlinə uyğun olaraq xidmət haqqı tutur.

**Milli Depozit Mərkəzi.** Milli Depozit Mərkəzi (MDM) Azərbaycan Respublikasında qiymətli kağızların saxlanılması, qiymətli kağızların reyestrinin aparılması, qiymətli kağızlar üzrə ödəniş agenti və digər aidiyyəti xidmətləri göstərir. Milli Depozit Mərkəzi qeyri-kommersiya hüquqi şəxs formasında təsis edilmiş Azərbaycan Respublikası ərazisində depozitar sistemini idarə edən mərkəzi depozitardır. İstiqrazların emissiyası prosesində Milli Depozit Mərkəzinin vəzifələri aşağıdakı kimidir:

- İstiqrazların saxlanması və uçotunun aparılması;
- İstiqraz mülkiyyətçilərinin reyestrinin aparılması;
- Emitentin ödəniş agenti qismində istiqraz üzrə istiqraz mülkiyyətçilərinə ödənişlərin (əsas borc və faiz) həyata keçirilməsi xidmətinin göstərilməsi.

Bu xidmətlərin göstərilməsinə görə MDM öz tarif cədvəlinə uyğun olaraq xidmət haqqı tutur.

**Anderrayter.**

**"ABB-İnvest İnvestisiya Şirkəti" QSC** 18.09.2020 tarixli, İŞ-05 saylı müddətsiz lisenziya əsasında qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidməti göstərən peşəkar investisiya şirkətidir.

Emitent tərəfindən buraxılacaq istiqrazların öhdəlik götürməklə anderraytinqi və yerləşdirilməsi "ABB-İnvest İnvestisiya Şirkəti" QSC tərəfindən həyata keçiriləcəkdir və bu xidmətin göstərilməsinə görə Emitentdən xidmət haqqı tutacaqdır. İstiqrazlarının anderraytinqi və yerləşdirilməsi prosesində "ABB-İnvest İnvestisiya Şirkəti" QSC-nin maraqları kommersiya xarakterlidir.

Bu emissiyada iştirak edən MDM, BFB, Emitentin İdarə Heyətinin sədri Qənbərov

Amid Mirzəyar oğlu, Emitentin Maliyyə Departamentinin direktoru Muxtarov Əli Cavid oğlu, kənar auditorların və anderrayterin maraqlarının toqquşması ilə bağlı hal mövcud deyildir.

**5.4. İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği.**

**5.4.1. Vergilər:** Azərbaycan Respublikasının Vergi Məcəlləsinin (bundan sonra – AR Vergi Məcəlləsi) 123.1-ci maddəsinə əsasən rezident fiziki şəxsə, qeyri-rezident fiziki şəxsin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinə (maliyyə lizinqini həyata keçirən fiziki şəxslər istisna olmaqla) və Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezidentə rezident tərəfindən və ya qeyri-rezidentin daimi nümayəndəliyi tərəfindən, yaxud bu cür nümayəndəliyin adından ödənilən faizlərdən, o cümlədən maliyyə lizinqi əməliyyatları üzrə ödənilən ssuda faizlərindən, gəlir AR Vergi Məcəlləsinin 13.2.16-cı maddəsinə uyğun olaraq Azərbaycan mənbəyindən əldə edilmişdirsə, AR Vergi Məcəlləsinin 102.1.22-ci və 102.1.22-2-ci maddələrində nəzərdə tutulmuş güzəşt nəzərə alınmaqla ödəniş mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur. AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslərin 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində Azərbaycan Respublikasının ərazisində, habelə ölkə hüdudlarından kənarda rezident hüquqi şəxslər tərəfindən kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azad olunmuşdur. İstiqraz üzrə gəlirlərdən mənbədə digər vergilərin tutulması AR Vergi Məcəlləsinə uyğun tənzimlənir. İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi aidiyyəti vergilərlə bağlı dəyişiklər olarsa, ona uyğun vergilər tətbiq ediləcək.

**5.4.2. Xərclər.** İlkin bazarda istiqrazların alışı zamanı həyata keçən əqdlərdən aşağıdakı investor xərcləri yarana bilər:

- Bakı Fond Birjası - əqdin həcmindən 0.02%
- Milli Depozit Mərkəzi – depo hesabının açılışı 5 (beş) AZN, investisiya şirkəti tərəfindən depo hesabı açılışı ilə bağlı əlavə rüsum tətbiq edilə bilər;
- İnvestisiya şirkətləri – investisiya şirkəti ilə investor arasında bağlanmış müqavilə əsasında;
- Bank köçürmə xərcləri – bankdan aslı olaraq dəyişir.

# İstiqrazların emitenti barədə tələb olunan məlumat

**6. Emitentin auditorları barədə məlumat:**

**6.1.1. Son üç maliyyə ili ərzində emitentin auditorlarının adı, ünvanları və hər hansı təşkilatda üzvlüyü barədə məlumat:**

| Maliyyə ili | Auditorun adı | Ünvanı | Audit təşkilatında üzvlüyü barədə məlumat |
|---|---|---|---|
| **2023** | Baker Tilly Azerbaijan | Azərbaycan, Bakı AZ1022, C.Məmmədquluzadə küçəsi 102 A. City Point Baku Biznes Mərkəzi 9-cu mərtəbə | Azərbaycan Respublikasının Auditorlar Palatasının üzvü |
| **2024** | Baker Tilly Azerbaijan | Azərbaycan, Bakı AZ1022, C.Məmmədquluzadə küçəsi 102 A. City Point Baku Biznes Mərkəzi 9-cu mərtəbə | Azərbaycan Respublikasının Auditorlar Palatasının üzvü |
| **2025** | Baker Tilly Azerbaijan | Azərbaycan, Bakı AZ1022, C.Məmmədquluzadə küçəsi 102 A. City Point Baku Biznes Mərkəzi 9-cu mərtəbə | Azərbaycan Respublikasının Auditorlar Palatasının üzvü |

**6.1.2. Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi və ya dəyişdirilməsi barədə səbəbləri göstərilməklə məlumat:** Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi baş verməyib.

## 7. Emitent barədə məlumat

**7.1. Emitentin tam adı, təşkilati-hüquqi forması**: "AFB Bank" Açıq Səhmdar Cəmiyyəti.

**7.2. Emitentin dövlət qeydiyyatının rekvizitləri**: Emitent 11.07.2008-ci il tarixində Azərbaycan Respublikasının Vergilər Nazirliyinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi tərəfindən 1301703781 (VÖEN) qeydiyyat nömrəsi ilə dövlət qeydiyyatına alınmışdır. Eyni zamanda Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən verilmiş 28.11.2008-ci il tarixli, 253 saylı bank lisenziyası əsasında fəaliyyət göstərir.

**7.3. Emitentin təşkilati-hüquqi forması dəyişdirildikdə, onun bütün əvvəlki adları, təşkilati-hüquqi formaları, o cümlədən dəyişikliklərin qeydiyyat tarixi:** 16.02.2009-cu ildə "Azfinansbank" ASC kimi fəaliyyətə başlamış və Nizamnaməyə əsasən Səhmdarların Ümumi Yığıncağının 15.09.2009-cu il tarixli qərarı ilə Bankın adı dəyişdirilərək "AFB Bank" ASC adlandırılmışdır.

**7.4. Emitentin olduğu yer, poçt ünvanı, elektron poçt ünvanı, emitentin internet səhifəsinin ünvanı və əlaqə telefonları:**
Qeydiyyat ünvanı: AZ1065, Bakı ş., Yasamal ray., N.Nərimanov pr., ev 206/466.
Elektron poçt ünvanı: info@afb.az
İnternet səhifəsi: www.afb.az
Əlaqə telefonları: (+99412) 565 65 56

**7.5. Emitentin qiymətli kağızlarının ticarətə buraxıldığı tənzimlənən bazarlar barədə**

**məlumat:** Emissiya prosesində iştirak edən "Bakı Fond Birjası" QSC (bundan sonra-BFB) yeni emissiya edilmiş istiqrazların listinqə daxil edilməsi, hərrac vasitəsilə istiqrazların ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir.

BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti"–ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir.

BFB-nin fəaliyyəti AR Mülki Məcəlləsi, Qiymətli Kağızlar Bazarı haqqında AR Qanunu, Azərbaycan Respublikasının digər hüquqi-normativ aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

Yerləşdiyi ünvan: Bakı şəhəri, C.Məmmədquluzadə küçəsi 102A, City Point Biznes Mərkəzi.

Elektron poçt ünvanı: info@bse.az

İnternet şəbəkəsində rəsmi səhifəsi: www.bse.az

Tel: (+99412) 498 98 20

## 8. Emitentin biznesinin icmalı

**8.1.** **Emitentin əsas fəaliyyət istiqaməti**: Emitentin əsas fəaliyyət istiqaməti bank fəaliyyətidir. Eyni zamanda, milli və xarici valyutada fiziki və hüquqi şəxslərdən depozitlərin və ya digər qaytarılan vəsaitlərin cəlb edilməsi və öz hesabına kreditlərin verilməsi, habelə müştərilərin tapşırığı ilə köçürmə və hesablaşma-kassa əməliyyatlarının məcmu halda həyata keçirilməsi, Nizamnaməsində, bank lisenziyasında və qanunvericiliklə nəzərdə tutulmuş digər fəaliyyət növləri ilə məşğul olur.

**8.2.** **Emitentin satılmış məhsullarının və ya göstərilmiş xidmətlərinin əsas kateqoriyalarınıgöstərərək emitentin əsas fəaliyyətlərinin təsviri**: Əsas məqsədin icrası ilə əlaqədar aşağıdakı fəaliyyətləri həyata keçirir:

- tələbli və müddətli depozitlərin (əmanətlərin) və digər qaytarılan vəsaitlərin cəlb edilməsi;

Əmanətlər üzrə satış göstəriciləri (min manat ilə):

| Əmanətlər | 2023 | 2024 | 2025 |
|---|---|---|---|
| **Tələbli** | 135 576 | 97 411 | 120 759 000 |
| **Müddətli** | 33 819 | 33 032 | 104 122 000 |
| **CƏMİ** | 169 395 | 130 443 | 224 881 000 |
| **YEKUN** | **524 719 000** | | |

- kreditlərin (təminatlı və/və ya təminatsız) verilməsi, o cümlədən istehlak və ipoteka kreditləşdirilməsi, digər kreditləşdirmə növləri;

Kreditləşdirmə üzrə satış göstəriciləri

| Kredit portfeli | 2023 | 2024 | 2025 |
|---|---|---|---|
| **İpoteka / DEN** | 62 171 000 | 71 602 000 | 69 907 000 |
| **Biznes** | 101 135 000 | 96 941 000 | 165 764 000 |
| **İstehlak** | 24 247 000 | 22 100 000 | 64 792 000 |
| **CƏMİ** | 187 553 000 | 190 643 000 | 300 463 000 |
| **YEKUN** | **678 659 000** | | |

| Kredit portfeli | 2023 | 2024 | 2025 |
|---|---|---|---|
| **Təminatlı** | 165 814 000 | 169 390 000 | 293 290 000 |
| **Təminasız** | 21 739 000 | 21 253 000 | 7 173 000 |
| **CƏMİ** | 187 553 000 | 190 643 000 | 300 463 000 |
| **YEKUN** | **678 659 000** | | |

- fiziki və hüquqi şəxslərin hesablarının, o cümlədən bankların müxbir hesablarının açılması və aparılması;
- klirinq, hesablaşma-kassa xidmətləri, pul vəsaitinin, ödəniş vasitələrinin köçürülməsi üzrə xidmətlər göstərilməsi;
- bank, maliyyə və sərmayə qoyuluşu sahəsində xidmət göstərmək
- öz hesabına və ya müştərilərin hesabına valyuta mübadiləsi əməliyyatlarının həyata keçirilməsi;
- öhdəliklərin icrasına təminatların, o cümlədən qarantiyaların verilməsi və öz hesabına və ya müştərilərin hesabına akkreditivlərin açılması;
- kreditlərə və kredit qabiliyyətinin yoxlanılmasına dair informasiya verilməsi və xidmətlər göstərilməsi;
- sənədləri və qiymətliləri, o cümlədən pul vəsaitlərini saxlanca qəbul etmək (xüsusi otaqlarda və ya seyf qutularında saxlamaq).

**8.3. Təqdim olunmuş yeni məhsul və ya xidmətlər barədə məlumat, onların inkişaf statusu:**

- **Mastercard Cross Border Services layihəsi** Bank tərəfindən beynəlxalq ödənişlərin daha sürətli, təhlükəsiz və şəffaf icrası üçün Mastercard Cross Border Services platforması istifadəyə verilmişdir. Bu həll vasitəsilə müştərilərimizə müxtəlif ölkələrə tez və etibarlı pul köçürmələri etmək imkanı yaradılmışdır. Layihə uğurla tətbiq edilmiş və hazırda bank tərəfindən aktiv şəkildə istifadə olunur.
- **Viza Direct Account layihəsi:** Hazırda bankda Visa Direct Account layihəsinin implementasiyası istiqamətində işlər aparılır. Bu layihə çərçivəsində müştərilərimizə Visa vasitəsilə beynəlxalq səviyyədə sürətli və asan pul köçürmələri xidmətləri təqdim etmək nəzərdə tutulur. Layihə icra mərhələsindədir və yaxın zamanda tam istifadəyə verilməsi planlaşdırılır

- **Onlayn Kreditlərin verilməsi Skorinq üzərindən:** Onlayn Kredit müştərilərə sadə müraciət, sürətli sənədləşdirmə və əlverişli ödəniş şərtləri təklif edir. 21 Aprel tarixindən Onlayn kreditlərin verilməsinə başlanılıb. Gələcək mərhələlərdə zamin və yenidən maliyyələşdirmə kreditlərinin təqdim edilməsi planlaşdırılır.
- **Yeni İnternet Bankçılıq:** 27 Oktyabr tarixində yenilənmiş İnternet Bankçılıq istifadəyə verildi! Yenilənmiş İnternet Bankçılıq biznes müştərilərinə əməliyyatları daha sürətli, funksional və təhlükəsiz həyata keçirmək imkanı verir. Bir çox əməliyyatlarla yanaşı, xarici transferlər (rubl ilə) də həyata keçirilə bilər. İB-nin ikinci fazasında nəzərdə tutulan bütün funksionallıqların 2026-ci ilin birinci rübündə istifadəyə verilməsi planlaşdırılır.
- **Open Banking-Açıq Bankçılıq:** Open Banking üzrə digər banklara AFB Bankın müştərilərinin məlumat çıxışının təqdim edilməsi. Növbəti mərhələlərdə Digər bankların müştəri məlumatlarının AFB Bank-a təqdim edilməsi nəzərdə tutulub.
- **Sərbəst əmanət:** 22 Dekabr tarixində yeni "Sərbəst əmanət" məhsulu istifadəyə verilmişdir. Bu məhsul əmanət üzrə daha çevik idarəetmə imkanı, aylıq faiz ödənişi və əmanət məbləğinin müqavilə müddəti ərzində istənilən vaxt artırılması və azaldılması üstünlüklərini təqdim edir
- **Mikro Kreditləşmə Peşə məhsulu:** Mikro kredit prosesləri aprel ayından etibarən gücləndirilmiş və portfel 4 mln-dan 34 mln-a çatmışdır.
- **Sürətli Tender Qarantiyası:** Məhsulun əsas üstünlüyü onun girovsuz təqdim olunması və Kredit Risklərinin Anderaytinqi strukturunun rəyi əsasında 1 iş günü ərzində rəsmiləşdirilməsidir.

**8.4.** **Emitentin rəqabət apardığı əsas bazarların təsviri:** Azərbaycan bank sektoru məhsul çeşidlərinə görə çox inkişaf etmişdir və bu da bazar iştirakçıları arasında ciddi rəqabət yaradır. Mövcud müştəri bazasının qorunması və yeni müştərilərin cəlb edilməsi üçün hər bir bazar iştirakçısı, o cümlədən "AFB Bank" ASC xidmət keyfiyyətinin və müştəri təcrübəsinin davamlı olaraq təkmilləşdirilməsi, xidmətlərin rəqəmsallaşdırılması, biznes proseslərə innovativ həllərin tətbiqi və digər alətlərdən aktiv istifadə etməkdədir. AFB Bank universal bank xidmətləri göstərir, qanunvericilikdə və bank lisenziyasında nəzərdə tutulan bütün xidmətləri təklif edir. Emitent bütün məhsul çeşidləri üzrə bütün bank rəqibləri, o cümlədən oxşar maliyyə xidmətləri göstərən bank olmayan kredit təşkilatları ilə rəqabət aparır. Hazırda bazarda 22 bank və 54 bank olmayan kredit təşkilətları fəaliyyət göstərir. Azərbaycan bank bazarı son illər ərzində sürətlə artsa da, xüsusilə rəqəmsal həllər hesabına bank dövriyyəsi yüksəlsə də, əhalinin və biznes banklaşma səviyyəsi hələ də tam mənimsənilməyib və bazarın artım potensialı yüksək olaraq qalır. Bu çərçivədə, cari və gələcək çağırışları, habelə yeni müştəri təcrübələrinin inkişafını nəzərə alaraq, son illər ərzində Emitent satış nöqtələrinin optimizasiyasını təmin etmiş, rəqabət üstünlüyü yüksək olan məhsul çeşidlərinə və biznes proseslərə fokuslanmış, növbəti strateji dövrdə isə innovativ çağırışları nəzərə alaraq müvafiq transformasiyaları planlaşdırır.

Qeyd edək ki, Emitentin xarici bazarlarda rəqabəti mövcud deyil. Emitentin daxili bazarda 2024-cü il üzrə ümumi gəlirləri 32 340 000 manat olmuşdur ki, bunun da 78%-i faiz gəlirləri, qalan 22%-i isə haqq və komisyon gəlirlərindən ibarətdir. Emitentin faiz gəlirlərinin 15%-i istehlak, 63%-i biznes, 22%-i isə ipoteka kreditləri seqmenti üzrədir.

Emitentin gəlirləri Azərbaycan mənbəyindən formalaşır. Emitentin xidmət şəbəkəsi əsasən Bakı şəhərində yerləşib, bundan əlavə Qəbələ, Gəncə və Sumqayıt şəhərlərində xidmət nöqtələri mövcuddur. Bankın gəlirlərinin 80%-i Bakı şəhəri üzrədir.

**Əməliyyat mühiti:** Moody's araşdırma və reytinq agentliyi tərəfindən təqdim olunan hesabatlara əsasən Azərbaycan banklarının iqtisadi və əməliyyat şəraiti yüksək neft və qaz qiymətləri fonunda qeyri-neft iqtisadiyyatının dövlət xərcləri hesabına artımı ilə dəstəklənərək əlverişli olaraq qalacaq.

**Texnoloji infrastruktur:** Texnologiyanın sürətli inkişafı həm dünyada, həm də Azərbaycanda yeni innovativ şirkətlərin yaranmasına və xidmət sahələrində, xüsusən də bank sektorunda rəqabətin artmasına səbəb olur. Son illər Azərbaycanda startap mühitinin formalaşması və inkişafı maliyyə xidmətlərinin göstərilməsində yeni innovativ həllərin tətbiqi imkanlarını artırır.

**8.5. Emitentin rəqabət mövqeyinə dair bəyanatı olduğu halda onun əsaslandırması:** Mövcud deyil.

## 9. Digər təşkilatlarda iştirak

**9.1. Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri:** Emitentin digər hüquqi şəxslərdə iştirakı mövcud deyil.

**9.2. Emitentin qrupdakı digər müəssisələrdən asılı olduğu təqdirdə bu barədə məlumat:** Belə bir hal mövcud deyil.

## 10. Tendensiyalar barədə məlumat

**10.1. Audit edilmiş maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən emitentin baza emissiya prospektində mənfi dəyişikliyin olub-olmaması barədə məlumat:** Maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən baza emissiya prospektinə mənfi təsir edə biləcək hər hansı bir hadisə baş verməmişdir.

**10.2. Emitentin fəaliyyətinə cari maliyyə ili dövründə təsir etmə ehtimalı olan məlum tendensiyalar, qeyri-müəyyənliklər, tələblər, öhdəliklər və ya hadisələr barədə məlumat:** Eminentin fəaliyyətinə cari maliyyə ili dövründə bir çox iqtisadi sosial və normativ tendensiyalar təsir edə bilər.

Mərkəzi Bankın likvidlik kapital və digər əmsallar üzrə tələblərinin dəyişməsi uçot dərəcələrinin artırılıb azaldılması və digər fəaliyyətləri emitentin və ümumilikdə bank sektorunun gəlirliyi, likvidliyi, aktivlərin keyfiyyəti və digər parametrlərinə təsir edə bilər.

İstifadəçi davranışlarının dəyişilməsi, xüsusilə gənc nəsillər tərəfindən daha çox mobil bankçılıq və onlayn bankçılığın, yeni maliyyə alətlərinin istifadəsi bu sahəyə investisiyaları, eyni zamanda bundan qaynaqlanan kibertəhlükəsizlik və digər risklərlə effektiv şəkildə mübarizəni zəruri edir. Bu risklər düzgün qiymətləndirilməzsə emitentin və ümumilikdə sektorun gəlirliyinə və müştəri etibarına mənfi nəticələr

doğurma potensialına malikdir.

Regionumuzdakı münaqişələr, qonşulara və ticarət tərəfdaşlarımıza qarşı sanksiyalar, volatil enerji qiymətləri və digər geosiyasi qeyri-müəyyənliklər ölkə iqtisadiyyatının və bank sektorunun, o cümlədən emitentin gəlirliyinə və aktivlərinin keyfiyyətinə neqativ təsir etmə potensiyalına malikdir. Dövlətin və mərkəzi bankın aktiv maliyyə və fiskal siyasəti və ölkəmizin kifayət qədər böyük rezerv bufferi bu risklərin təsirinin minimuma endirilməsinə kömək edir.

"Açıq bankçılıq" yol xəritəsi, tənzimləyici sandbox və rəqəmsal ödəniş strategiyası API əsaslı xidmətlər, emitentin İT-investisiyalarını genişləndirməsini və buna uyğun olaraq zəruri insan kapitalını cəlb etməsini edir.

## 11. Gəlir proqnozu

Mövcud deyil.

## 12. Emitentin idarəetmə və nəzarət orqanları

### 12.1. Emitentin idarəetmə və nəzarət orqanlarının hər bir üzvü barədə aşağıdakı məlumatlar:

**Emitentin ali idarəetmə orqanı:** Səhmdarların Ümumi Yığıncağıdır. Səhmdarların Ümumi Yığıncağının iclasları növbəti və növbədənkənar keçirilir. Emitentin səhmdarlarının ümumi sayı 3-dür.

Səhmdarların Ümumi Yığıncağının müstəsna səlahiyyətlərinə aşağıdakılar daxildir:

- Bankın nizamnaməsini qəbul etmək, nizamnaməyə əlavə və dəyişikliklər etmək;
- Bankın Müşahidə Şurasının üzvlərini təyin və azad etmək, əsasnaməsini təsdiq etmək, "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla, Bankın inzibatçılarının işə götürülməsi müddətlərini və şərtlərini müəyyənləşdirmək;
- Müşahidə Şurası üzvlərinin səlahiyyətləri istisna olmaqla, Bankın inzibatçılarının Bank adından və Bank hesabına öhdəliklər qəbul etmək səlahiyyətlərini və həmin səlahiyyətlərin Bankın digər əməkdaşlarına verilməsi hüququnun hədlərini müəyyənləşdirmək;
- "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 28-ci maddəsinə əsasən, Bank inzibatçılarının kommersiya maraqlarını açıqlaması haqqında qaydaları və həmin qaydalara dəyişiklik və əlavələri qəbul etmək;
- Bankın törəmə təsərrüfat cəmiyyətlərini yaratmaq və fəaliyyətlərinə xitam vermək, başqa bankın satın alınması barədə qərarlar qəbul etmək;
- nizamnamə kapitalının artırılması və azaldılması barədə qərarlar qəbul etmək, Bank səhmlərinin buraxılması müddətlərini və şərtlərini müəyyənləşdirmək, habelə Bankda mühüm iştirak payının əldə edilməsinə razılıq vermək;
- Bankın kənar auditor tərəfindən təsdiqlənmiş və Audit Komitəsi tərəfindən tövsiyə edilmiş illik maliyyə hesabatlarını təsdiq etmək, habelə xalis mənfəət hesabına ehtiyatların yaradılması və dividendlərin ödənilməsi barədə qərar qəbul etmək;
- Bankın satılması, yenidən təşkili və ləğvi barəsində qərarlar qəbul etmək;
- Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Banklar haqqında" Azərbaycan Respublikasının Qanunu və Bankın nizamnaməsi ilə səlahiyyətinə aid edilmiş digər məsələləri həll etmək.

**Müşahidə Şurası barədə məlumat:**

| | ASA | Vəzifə | Funksiya |
|---|---|---|---|
| 1 | Şahverdiyev Vüsal İlqar oğlu | Müşahidə Şurasının sədri | Bankın idarə edilməsinə və fəaliyyətinə nəzarəti həyata keçirmək, o cümlədən, Bankın İdarə Heyətindən hesabat almaq, Banka ümumi rəhbərlik etmək və onun təşkilati strukturuna dair qərarlar qəbul etmək |
| 2 | Qurbanov Elnur Məmməd oğlu | Müşahidə Şurasının müstəqil üzvü | Bankın idarə edilməsinə və fəaliyyətinə nəzarəti həyata keçirmək, o cümlədən, Bankın İdarə Heyətindən hesabat almaq, Banka ümumi rəhbərlik etmək və onun təşkilati strukturuna dair qərarlar qəbul etmək |
| 3 | Amanova Şadiyyə Mail qızı | Müşahidə Şurasının üzvü | Bankın idarə edilməsinə və fəaliyyətinə nəzarəti həyata keçirmək, o cümlədən, Bankın İdarə Heyətindən hesabat almaq, Banka ümumi rəhbərlik etmək və onun təşkilati strukturuna dair qərarlar qəbul etmək |

**İdarə Heyəti barədə məlumat:**

| | ASA | Vəzifə | Funksiya |
|---|---|---|---|
| 1 | Qənbərov Amid Mirzəyar oğlu | İdarə Heyətinin sədri | Bankın idarə olunması və fəaliyyətini hayata keçirir Bankın idarə olunması və fəaliyyətinin həyata keçirilməsi ilə bağlı olan və Səhmdarların Ümumi Yığıncağının və Müşahidə Şurasının səlahiyyətlarinə aid olmayan səlahiyyətlər aiddir. İdarə Heyətinin səlahiyyətləri Azarbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi, Bankın Nizamnaməsi və İdarə Heyətinin əsasnaməsi ilə müəyyən |

| | | | |
|---|---|---|---|
| | | | olunur. |
| 2 | Manafov Rüfət İntiqam oğlu | İdarə Heyətinin üzvü, sədrin müavini - Baş risk inzibatçısı | Bankın idarə olunması və fəaliyyətini hayata keçirir Bankın idarə olunması və fəaliyyətinin həyata keçirilməsi ilə bağlı olan və Səhmdarların Ümumi Yığıncağının və Müşahidə Şurasının səlahiyyətlarinə aid olmayan səlahiyyətlər aiddir. İdarə Heyətinin səlahiyyətləri Azarbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi, Bankın Nizamnaməsi və İdarə Heyətinin əsasnaməsi ilə müəyyən olunur. |

**Audit Komitəsi barədə məlumat:**

| | ASA | Vəzifə | Funksiya |
|---|---|---|---|
| 1 | Şadiyyə Amanova Mail qızı | Komitənin sədri | Komitəyə rəhbərlik edir;<br>Komitənin iclasını çağırır və iclasları aparır;<br>Komitə üzvlərinin və daxili audit bölməsi əməkdaşlarının vəzifə təlimatlarını təsdiq edir;<br>Komitənin təsdiq etdiyi sənədləri imzalayır və Audit Komitəsinin əsasnaməsində nəzərdə tutulan digər funksiyalar. |
| 2 | Elnur Qurbanov Məmməd oğlu | Komitənin üzvü | Bankın audit siyasəti və strategiyasının müəyyən edilməsində iştirak etmək;<br>Daxili audit planlarının təsdiq edilməsi və audit bölməsinin fəliyyətinə nəzarətin həyata keçirilməsində iştirak etmək;<br>Daxili nəzarət sistemlərinin təkmilləşdirilməsi üçün prosesləri izləmək və təhlillər aparmaq və Audit Komitəsinin əsasnaməsində nəzərdə tutulan digər funksiyalar. |
| 3 | Müşviq Şabiyev Valeh oğlu | Komitənin müstəqil kənar üzvü | Daxili nəzarət sisteminin yaradılması və tətbiqinə, daxili nəzarətin və risklərin idarəedilməsi sistemlərinin fəaliyyətinin səmərəliliyinin artırılmasına və təkmilləşdirilməsinə |

| | | | |
|---|---|---|---|
| | | | dair SÜY və MŞ-ya təkliflər verilməsində iştirak etmək;<br>Kənar auditin təyin edilməsi ilə bağlı MŞ-ya təkliflər verilməsində iştirak etmək;<br>Bankın istənilən struktur bölməsində, yaxud sahəsində növbədənkənar audit aparılması barədə qərar qəbul edilməsində iştirak etmək və Audit Komitəsinin əsasnaməsində nəzərdə tutulan digər səlahiyyətlər. |

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 107-10.5-ci maddəsinə əsasən Cəmiyyətin icra orqanı üzvlərinin şəxsi marağı ilə cəmiyyətin maraqları arasında ziddiyyətlərə gətirib çıxara bilən,habelə Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 49-1.6-cı maddəsində nəzərdə tutulmuş hallarda cəmiyyətin icra orqanının rəhbəri və ya digər üzvləri müvafiq məlumatı cəmiyyətin direktorlar şurasına (müşahidə şurasına), o olmadıqda, səhmdarların ümumi yığıncağına yazılı şəkildə təqdim etməlidirlər. Cəmiyyətin maraqlarına zidd olan əqdlərin bağlanılması, müvafiq olaraq, Mülki Məcəllə, "Banklar haqqında" Azərbaycan Respublikasının Qanunu ilə ayrı qayda nəzərdə tutulmamışdırsa, müvafiq idarəetmə orqanının qərarı əsasında həyata keçirilə bilər.

## 13. Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan səhmdarlar:

**13.1. Emitentin nizamnamə kapitalında on faizdən artıq iştirak payına sahib olan şəxslərinadları, ünvanları və vətəndaşlığı:** Emitentin nizamnamə kapitalında 10 (on) faizdən artıq iştirak payı olan təsisçilərin payı aşağıdakı kimidir:

| A.S.A. | Adi səhmlərin sayı | % | Vətəndaşlıq | Ünvan |
|---|---|---|---|---|
| İsmayılov Hikmət Əbuzər oglu | 55 447 ədəd | 99.6406 % | (Azərbaycan) | Bakı şəhəri, M. Müşviq 12/34 |

**13.2. Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xüsusiyyəti və bu nəzarətin sui-istifadə edilmədiyinə əmin olmaq üçün lazımi tədbirləri təsviri:** Emitentin ümumi fəaliyyətinə nəzarəti Səhmdarların Ümumi Yığıncağı və Müşahidə Şurası həyata keçirir. Azərbaycan Respublikasının "Banklar haqqında" Qanununun 40.3-cü bəndinə əsasən bankların aidiyyəti şəxslərə digər şəxslərdən fərqli olaraq güzəştli şərtlərlə bank xidmətlərinin göstərilməsi qadağandır. Eyni zamanda, Mülki Məcəllənin 49-1-ci maddəsində aidiyyəti şəxslərlə əqdlərin bağlanması qaydası nəzərdə tutulmuşdur.
Ümumi yığıncaqlararası dövrdə Emitentin idarə olunmasına və işinə nəzarəti Səhmdarların Ümumi Yığıncağı tərəfindən Emitentin səhmdarlarından və ya kənar

şəxslərdən 3 (üç) il müddətinə 3 (üç) nəfərdən az olmamaqla, tək sayda üzvlərdən təyin edilmiş Müşahidə Şurası həyata keçirir.

13.3. **Mühüm iştirak payına sahib olan şəxslərin dəyişməsinə gətirə bilən və emitentə məlum olan əməliyyatlar barədə məlumat**: Emitentin Nizamnaməsinə əsasən, mühüm iştirak payına sahib olan səhmdarlar səhmdarların reyestrində onlara dair daxil edilmiş məlumatların dəyişilməsi barədə emitentə on gün əzrində yazılı bildiriş verməlidirlər.

## 14. Emitentin maliyyə məlumatları

14.1. **Emitentin başa çatmış son iki maliyyə ili üzrə audit edilmiş maliyyə hesabatları:** Maliyyə hesabatları üçün link: https://afb.az/audit-hesabatlari

**"AFB BANK" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**

**MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT**
**31 DEKABR 2025-Cİ İL TARİXİNƏ**
*(Əksi qeyd edilmədiyi halda, min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|---|
| **AKTİVLƏR:** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 6 | 71,938 | 49,037 |
| Azərbaycan Respublikasının Mərkəzi Bankında saxlanılan məcburi ehtiyatlar | 7 | 6,969 | 6,239 |
| Banklardan və digər maliyyə qurumlarından alınacaq vəsaitlər | 8 | 10,016 | 3,454 |
| İnvestisiya qiymətli kağızları | 9 | 503 | 16,414 |
| Müştərilərə verilmiş kreditlər | 10, 26 | 282,612 | 174,212 |
| Əmlak və avadanlıqlar | 11 | 24,656 | 23,016 |
| Qeyri-maddi aktivlər | 11 | 2,713 | 2,190 |
| İnvestisiya mülkiyyəti | 12 | 4,987 | 5,107 |
| Digər maliyyə aktivləri | 13 | 8,451 | 6,955 |
| Digər aktivlər | 13 | 4,785 | 5,659 |
| **Cəmi aktivlər** | | **417,630** | **292,283** |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | | |
| ÖHDƏLİKLƏR: | | | |
| Banklara və digər maliyyə qurumlarına ödəniləcək vəsaitlər | 14 | 31,416 | 419 |
| Müştərilərə ödəniləcək vəsaitlər | 15, 26 | 224,881 | 130,443 |
| Müddətli borc vəsaitləri | 16 | 71,979 | 76,462 |
| Buraxılmış borc qiymətli kağızları | 17 | 5,116 | - |
| Təxirə salınmış mənfəət vergisi öhdəlikləri | 25 | 1,118 | 1,755 |
| Digər maliyyə öhdəlikləri | 18 | 6,439 | 5,371 |
| Digər öhdəliklər | 18 | 1,594 | 832 |
| **Cəmi öhdəliklər** | | **342,543** | **215,282** |
| KAPİTAL: | | | |
| Səhmdar kapitalı | 19 | 70,393 | 70,393 |
| Bölüşdürülməmiş mənfəət | | 4,694 | 6,608 |
| **Cəmi kapital** | | **75,087** | **77,001** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **417,630** | **292,283** |

**İdarə Heyətinin adından:**

**Amid Qənbərov**
**İdarə Heyətinin sədri**

16 mart 2026-cı il
Bakı, Azərbaycan Respublikası

**Əli Muxtarov**
**Maliyyə strukturunun direktoru**

16 mart 2026-cı il
Bakı, Azərbaycan Respublikası

9-95-ci səhifələrdəki qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

"AFB BANK" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

# MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA HESABAT
## 31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Əksi qeyd edilmədiyi halda, min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| Faiz gəliri | 21, 26 | 27,471 | 23,993 |
| Faiz xərci | 21, 26 | (9,484) | (5,677) |
| **Xalis faiz gəliri** | | **17,987** | **18,316** |
| Haqq və komissiya gəlirləri | 22, 26 | 6,693 | 6,951 |
| Haqq və komissiya xərci | 22 | (6,118) | (6,310) |
| **Xalis haqq və komissiya gəlirləri** | | **575** | **641** |
| Xarici valyuta ilə alqı-satqı üzrə xalis gəlir | | 1,046 | 1,235 |
| Xarici valyuta ilə əməliyyatlar üzrə xalis gəlir/(zərər) | | 12 | (32) |
| Digər gəlirlər, xalis | | 1,348 | 161 |
| **Əməliyyat gəliri** | | **20,968** | **20,321** |
| Maliyyə aktivləri üzrə ehtimal olunan kredit zərərlərinin bərpası/(tutulması) | 23 | 2,395 | (111) |
| Ümumi və inzibati xərclər | 24, 26 | (19,172) | (14,020) |
| Müsadirə edilmiş aktivlərin ədalətli dəyəri üzrə dəyişiklik | 13 | (1,382) | (197) |
| Kredit öhdəlikləri və zəmanətlər üzrə ehtimal olunan kredit zərərlərinin bərpası | | - | 67 |
| **Mənfəət vergisindən əvvəl mənfəət** | | **2,809** | **6,060** |
| Mənfəət vergisi xərci | 25 | (615) | (1,952) |
| **İl üzrə xalis mənfəət** | | **2,194** | **4,108** |
| **İl üzrə cəmi məcmu gəlir** | | **2,194** | **4,108** |
| **Səhm üzrə mənfəət** | | | |
| Əsas və azaldılmış mənfəət (AZN ilə ifadə edilmiş) | 20 | 39.43 | 73.82 |

**İdarə Heyətinin adından:**

**Amid Qənbərov**
**İdarə Heyətinin sədri**

16 mart 2026-cı il
Bakı, Azərbaycan Respublikası

**Əli Muxtarov**
**Maliyyə strukturunun direktoru**

16 mart 2026-cı il
Bakı, Azərbaycan Respublikası

9-95-ci səhifələrdəki qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

## "AFB BANK" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

### KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
### 31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Əksi qeyd edilmədiyi halda, min Azərbaycan manatı ilə)*

| | Səhmdar kapitalı | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|
| **1 yanvar 2024-cü il** | **70,393** | **10,071** | **80,464** |
| İl üzrə cəmi məcmu gəlir | - | 4,108 | 4,108 |
| Elan edilmiş dividendlər | - | (7,571) | (7,571) |
| **31 dekabr 2024-cü il** | **70,393** | **6,608** | **77,001** |
| İl üzrə cəmi məcmu gəlir | - | 2,194 | 2,194 |
| Elan edilmiş dividendlər | - | (4,108) | (4,108) |
| **31 dekabr 2025-ci il** | **70,393** | **4,694** | **75,087** |

**İdarə Heyətinin adından:**

**Amid Qənbərov**
**İdarə Heyətinin sədri**

16 mart 2026-cı il
Bakı, Azərbaycan Respublikası

**Əli Muxtarov**
**Maliyyə strukturunun direktoru**

16 mart 2026-cı il
Bakı, Azərbaycan Respublikası

9-95-ci səhifələrdəki qeydlər hazırki maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

## "AFB BANK" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

### PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
### 31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Əksi qeyd edilmədiyi halda, min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİ** | | | |
| Alınmış faiz | | 27,527 | 23,029 |
| Ödənilmiş faiz | | (8,759) | (4,919) |
| Alınmış haqq və komissiyalar | | 6,693 | 6,951 |
| Ödənilmiş haqq və komissiyalar | | (6,118) | (6,310) |
| Ödənilmiş ümumi və inzibati xərclər | | (15,325) | (13,400) |
| Xarici valyuta ilə alqı-satqı üzrə xalis gəlir | | 1,046 | 1,235 |
| Digər alınmış gəlirlər, xalis | | 354 | 119 |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin hərəkəti** | | **5,418** | **6,705** |
| **Əməliyyat aktivlərində (artma)/azalma** | | | |
| ARMB-də saxlanılan məcburi ehtiyatlar | | (730) | 1,311 |
| Banklardan və digər maliyyə qurumlarından alınacaq vəsaitlər | | (6,534) | 210 |
| Müştərilərə verilmiş kreditlər | | (106,932) | (11,842) |
| Digər maliyyə aktivləri | | (668) | (1,434) |
| Digər aktivlər | | 966 | 5,805 |
| **Əməliyyat öhdəliklərində artma/(azalma)** | | | |
| Banklara və digər maliyyə qurumlarına ödəniləcək vəsaitlər | | 30,522 | 417 |
| Müştərilərə ödəniləcək vəsaitlər | | 93,984 | (39,526) |
| Digər maliyyə öhdəlikləri | | (327) | 1,326 |
| **Ödənilmiş mənfəət vergisindən əvvəl əməliyyat fəaliyyəti üzrə daxil olan/(istifadə olunan) pul vəsaitlərinin hərəkəti** | | **15,699** | **(37,028)** |
| Ödənilmiş mənfəət vergisi | | (1,481) | (2,445) |
| **Əməliyyat fəaliyyəti üzrə daxil olan/(istifadə olunan) pul vəsaitlərinin hərəkəti** | | **14,218** | **(39,473)** |
| **İNVESTİSİYA FƏALİYYƏTİ** | | | |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlər üzrə ödənişlər | | (3,334) | (1,364) |
| İnvestisiya qiymətli kağızlarının geri alınması və ya satışından daxilolmalar | | 15,463 | 56,929 |
| İnvestisiya qiymətli kağızları üzrə ödənişlər | | - | (31,216) |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin satışından daxilolmalar | | - | 42 |
| **İnvestisiya fəaliyyəti üzrə daxil olan pul vəsaitlərinin hərəkəti** | | **12,129** | **24,391** |
| **MALİYYƏLƏŞDİRMƏ FƏALİYYƏTİ** | | | |
| Müddətli borc vəsaitləri üzrə daxilolmalar | 16 | 27,762 | 17,727 |
| Müddətli borc vəsaitlərinin qaytarılması | 16 | (32,228) | (11,628) |
| Buraxılmış borc qiymətli kağızları üzrə daxilolmalar | 17 | 5,000 | - |
| İcarə öhdəliklərinin əsas hissəsinin qaytarılması | 18 | (375) | (300) |
| Səhmdarlara ödənilmiş dividendlər | 19 | (4,108) | (7,571) |
| **Maliyyələşdirmə fəaliyyətində istifadə olunan pul vəsaitlərinin hərəkəti** | | **(3,949)** | **(1,772)** |

## "AFB BANK" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

### PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
### 31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ (Davamı)

*(Əksi qeyd edilmədiyi halda, min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| Xarici valyuta məzənnəsindəki dəyişikliklərin xarici valyuta ilə saxlanılan pul vəsaitləri və onların ekvivalentlərinin qalıqlarına təsiri | | 503 | (150) |
| Pul vəsaitləri və onların ekvivalentləri üzrə xalis artma/(azalma) | | 22,901 | (17,004) |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin əvvəlinə* | 6 | 49,037 | 66,041 |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin sonuna* | 6 | 71,938 | 49,037 |

**İdarə Heyətinin adından:**

**Amid Qənbərov**
**İdarə Heyətinin sədri**

16 mart 2026-cı il
Bakı, Azərbaycan Respublikası

**Əli Muxtarov**
**Maliyyə strukturunun direktoru**

16 mart 2026-cı il
Bakı, Azərbaycan Respublikası

9-95-ci səhifələrdəki qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

**14.2. Emitent bir ildən az müddətdə fəaliyyət göstərdiyi təqdirdə bu dövrü əhatə edən audit edilmiş maliyyə hesabatları:** Emitent 2008-ci ildə təsis edilmişdir və 2009-cu ildən fəaliyyət göstərir.

**14.3. Maliyyə hesabatları MHBS-ə uyğun hazırlanmadığı təqdirdə, belə maliyyə hesabatları milli uçot standartlarına uyğun olaraq hazırlanmalıdır və ən azı aşağıdakıları özündə əks etdirməlidir:** Emitent maliyyə hesabatlarını MHBS-ə uyğun hazırlayır.

**14.4. Emitentin konsolidasiya olunmuş maliyyə hesabatı (olduqda):** Mövcud deyil.

**14.5. Emitent son audit edilmiş maliyyə hesabatlarının tarixindən etibarən rüblük və ya yarım illik maliyyə hesabatlarını dərc etdiyi təqdirdə onlar baza emissiya prospektinə daxiledilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatları audit edildiyi təqdirdə hesabata audit rəyi əlavə edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatı audit edilmədikdə bu qeyd edilməlidir:**

2025-ci ilin audit hesabatı hal-hazırda mövcuddur. Rüblük hesabat audit olunmur. Emitentin rüblük və yarım illik hesabatı bu linkdə yerləşdirilmişdir: https://afb.az/rubluk-hesabatlar

**Maliyyə vəziyyəti haqqında hesabat**

min manatl

| | 31.03.2025 Audit olunmamış | 31.03.2026 Audit olunmamış |
|---|---|---|
| | | |
| **Aktivlər:** | 299 584.97 | 482 007.58 |
| Nağd pul vəsaitləri və ekvivalentləri, o cümlədən bloklaşdırılmış nağd vəsait | 30 822.53 | 44 772.62 |
| Ticarət və investisiya qiymətli kağızları | 15 862.85 | 1 492.00 |
| Banklar və digər maliyyə institutlarındakı depozitlər | 7 000.00 | 57 500.00 |
| Banklar və digər maliyyə institutlarına verilən kreditlər | - | 5 641.98 |
| Müştərilərə verilmiş kreditlər | 186 840.88 | 328 153.31 |
| a) istehlak kreditləri | 23 012.91 | 74 503.18 |
| b) biznes kreditləri | 93 932.23 | 186 705.65 |
| c) daşınmaz əmlak kreditləri | 69 895.75 | 66 944.47 |
| d) digər kreditlər | - | - |
| (Mümkün zərərlər üçün yaradılan məqsədli ehtiyat) | (12 308.86) | (13 032.08) |
| Müştərilərə verilmiş kreditlər (xalis) | 174 532.02 | 315 121.23 |
| Əmlak və avadanlıqlar | 29 104.41 | 30 130.60 |
| Qeyri-maddi aktivlər | 2 124.03 | 2 944.54 |
| Təxirə salınmış vergi aktivləri | - | - |

| | | |
|---|---|---|
| Balansdankənar aktivlər üzrə mümkün zərərlərin ödənilməsi üçün məqsədli ehtiyat | - | 2.44 |
| Digər aktivlər | 40 139.13 | 24 407.06 |
| **Öhdəliklər:** | 220 052.09 | 402 938.83 |
| Depozitlər | 130 765.34 | 274 299.64 |
| a) fiziki şəxslərin depozitləri | 49 178.30 | 166 210.75 |
| b) hüquqi şəxslərin depozitləri | 81 587.04 | 108 088.89 |
| Mərkəzi bank və dövlət fondları qarşısında öhdəliklər | - | - |
| Kredit təşkilatları və digər maliyyə institutları qarşısında öhdəliklər | 74 681.55 | 102 279.24 |
| Borc qiymətli kağızları | - | 5 000.00 |
| Cari vergi öhdəlikləri | - | - |
| Təxirə salınmış vergi öhdəliyi | 1 177.00 | - |
| Subordinasiya borc öhdəlikləri | - | - |
| Digər öhdəliklər | 13 428.20 | 21 359.95 |
| **Kapital:** | 79 532.88 | 79 068.75 |
| Səhmdar kapitalı | 70 393.46 | 70 393.46 |
| Səhmin qiymətinin dəyişməsindən gəlir (zərər) | - | - |
| Bölüşdürülməmiş mənfəət | 7 174.17 | 5 659.58 |
| Ümumi ehtiyatlar: | 1 965.26 | 3 015.72 |
| a) kreditlər, lizinqlər və digər tələblər üzrə mümkün zərərlərin ödənilməsi üçün adi ehtiyatlar | 1 919.87 | 2 855.49 |
| b) əsas vəsaitlərin qiymətləndirilməsindən adi ehtiyatlar | - | - |
| c) digər ümumi ehtiyatlar | 45.39 | 160.23 |
| **Cəmi öhdəliklər və kapital** | **299 584.97** | **482 007.58** |

**Mənfəət və zərər haqqında hesabat**

min manatl

| | **31.03.2025 Audit olunmamış** | **31.03.2026 Audit olunmamış** |
|---|---|---|
| | | |
| **Faiz gəlirləri:** | **5 724.86** | **11 053.62** |
| Müştərilərə verilmiş kreditlər | 4 851.54 | 9 738.33 |
| Banklar və digər maliyyə institutlarına verilən kreditlər üzrə faiz gəlirləri | - | 232.08 |
| Banklar və digər maliyyə institutlarındakı depozitlər üzrə faiz gəlirləri | 377.77 | 842.00 |
| Ticarət və investisiya qiymətli kağızları üzrə faiz gəlirləri | 360.66 | 31.77 |
| Digər faiz gəlirləri | 134.90 | 209.43 |
| **Faiz xərcləri:** | **1 422.77** | **5 230.71** |
| Depozitlər üzrə faizlər | 854.08 | 3 786.12 |
| Mərkəzi bank və dövlət fondları qarşısında öhdəliklər üzrə faiz xərcləri | - | - |
| Cəlb edilmiş kreditlərə görə ödənilən faizlər | 568.69 | 1 166.54 |

| | | |
|---|---|---|
| Pul bazarı alətlərinə ödənilən faizlər | - | - |
| Qiymətli kağızlar üzrə faizlər | - | 115.56 |
| Digər faiz xərcləri | - | 162.50 |
| **Xalis faiz gəliri(zərəri)** | **4 302.09** | **5 822.91** |
| **Qeyri-faiz gəlirləri:** | **2 110.16** | **2 360.44** |
| Alınan haqq və kommisiya gəliri | 1 622.54 | 2 006.07 |
| Xarici valyutadan gəlir/zərər (məzənnə dəyişməsi daxil olmaqla) | 338.06 | 281.77 |
| Qiymətli kağızların satışından və yenidən qiymətləndirilməsindən gəlir/zərər | 62.31 | - |
| Digər gəlirlər | 87.26 | 72.59 |
| **Qeyri-faiz xərcləri:** | **5 324.27** | **7 857.47** |
| Əmək haqqı və digər kompensiya növləri üzrə xərclər | 2 206.58 | 4 111.62 |
| Ümumi və inzibati xərclər | 1 279.80 | 1 389.33 |
| Amortizasiya xərcləri | 476.50 | 583.51 |
| Digər xərclər | 1 361.39 | 1 773.01 |
| **(Mümkün zərərlər üçün yaradılan məqsədli ehtiyatlar)** | **(1 233.60)** | **(802.38)** |
| **Mənfəət vergisindən əvvəlki mənfəət(zərər)** | **2 321.58** | **1 128.25** |
| **Mənfəət vergisi** | **-** | **-** |
| **Dövr üzrə xalis mənfəət** | **2 321.58** | **1 128.25** |

**Pul vəsaitlərinin hərəkəti haqqında hesabat**

min manatl

| | **31.03.2025 Audit olunmamış** | **31.03.2026 Audit olunmamı** |
|---|---|---|
| | | |
| **Əməliyyat fəaliyyəti ilə əlaqədar pul vəsaitlərinin hərəkəti** | | |
| Alınmış faizlər | 5 455.72 | 10 975.76 |
| Ödənilmiş faizlər | (1 578.82) | (4 606.22) |
| Alınmış haqq və kommisiyalar | 1 601.12 | 1 995.53 |
| Ödənilmiş haqq və kommisiyalar | (1 348.19) | (1 761.53) |
| Xarici valyuta əməliyyatlarından xalis gəlir | 420.96 | 344.93 |
| Xarici valyutada törəmə maliyyə alətlərindən realizasiya olunmuş xalis gəlir | - | - |
| Ödənilmiş əmək haqqı və digər kompensasiyalar | (2 206.59) | (4 111.55) |
| Ödənilmiş ümumi və inzibati xərclər | (1 279.57) | (1 388.89) |
| Ümidsiz borclardan daxilolmalar | - | - |
| Alınmış digər əməliyyat gəlirləri | - | - |
| Ödənilmiş digər əməliyyat xərcləri | - | - |
| **Əməliyyat aktivlərində və öhdəliklərində dəyişikliklərdən əvvəl bank fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | **1 064.63** | **1 448.04** |
| Əməliyyat aktivlərindən xalis artım/azalma | - | - |
| Banklara verilmiş kreditlərdə və depozitlərdə xalis artım | 20 952.87 | (12 740.26) |

| | | |
|---|---|---|
| (azalma) | | |
| Müştərilərə verilmiş kreditlərdə xalis artım (azalma) | (2 059.57) | (33 131.12) |
| Digər aktivlərdə xalis artım (azalma) | (25 037.62) | (4 130.84) |
| Əməliyyat öhdəliklərindən xalis artım/azalma | - | - |
| Banklardan və digər maliyyə təşkilatlarından cəlb olunan depozitlər üzrə xalis artım (azalma) | 25.30 | (17.43) |
| Mərkəzi Bank üzrə öhdəliklırdə xalis artım (azalma) | - | - |
| Müştərilərin depozitləri və cari hesablarında xalis artım (azalma) | (2 822.26) | 60 903.06 |
| Digər öhdəliklərdəxalis artım (azalma) | 6 475.71 | 9 132.75 |
| **Mənfəət vergisindən əvvəl bank fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | **(1 400.94)** | **21 464.20** |
| Ödənilmiş mənfəət vergisi | - | - |
| **Əməliyyat fəaliyyəti ilə əlaqədar generasiya/istifadə edilən xalis pul vəsaitləri** | **(1 400.94)** | **21 464.20** |
| **İnvestisiya fəaliyyəti ilə əlaqədar pul vəsaitlərinin hərəkəti** | | |
| Əmlak və avadanlıqların alınması və avans ödənişləri | (131.97) | (1 082.31) |
| Əmlak və avadanlıqların satılmasından daxilolmalar | - | - |
| Qeyri-maddi aktivlərin alınması | - | - |
| Qeyri-maddi aktivlərin satılmasından daxilolmalar | - | - |
| Alınmış dividendlər | - | - |
| Satış üçün nəzərdə tutulan investisiya qiymətli kağızlarının satılması və geri alınması | - | (992.00) |
| Digər | - | - |
| **İnvestisiya fəaliyyəti ilə əlaqədar generasiya/istifadə olunan pul vəsaitlərinin hərəkəti** | **(131.97)** | **(2 074.31)** |
| **Maliyyələşdirmə fəaliyyəti ilə əlaqədar pul vəsaitlərinin hərəkəti** | | |
| Digər borc öhdəliklərinin əldə olunması | - | - |
| Digər borc öhdəliklərinin ödənilməsi | (1 417.80) | (2 102.54) |
| Subordinasiya borclarının əldə olunması | - | - |
| Subordinasiya borclarının ödənilməsi | - | - |
| Səhmdar kapitalının buraxılmasından daxilolmalar | - | - |
| Digər maliyyə öhdəliklərinin cəlb edilməsi (ödənilməsi) | - | - |
| **Maliyyələşdirmə fəaliyyəti ilə əlaqədar yaradılan/istifadə olunan pul vəsaitləri** | **(1 417.80)** | **(2 102.54)** |
| **Dövrün əvvəlinə pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | **33 772.86** | **27 486.35** |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərində xalis artma/(azalma)** | **(2 950.71)** | **17 287.35** |
| **Məzənnə dəyişikliyinin pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərinə təsiri** | **0.38** | **(1.09)** |
| **Dövrün sonuna pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | **30 822.53** | **44 772.62** |

**Kapitalda dəyişikliklər haqqında hesabat**

min manatla

| Maddələr | Nizamnamə kapitalı | Kapital ehtiyatı | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|---|
| **3/31/2026** | **70,393** | **-** | **5,660** | **76,053** |
| Kapital ehtiyatının köçürülməsi | - | - | - | - |
| Səhm emissiyası | - | - | - | - |
| Keçmiş illərin mənfəətinin kapitala köçürülməsi | - | - | - | - |
| Dividend ödənişi | - | - | - | - |
| Audit düzəlişləri | - | - | - | - |
| Xalis mənfəət | - | - | **1,128** | **1,128** |
| | | | | |
| **3/31/2025** | **70,393** | **-** | **7,174** | **77,568** |
| Kapital ehtiyatının köçürülməsi | - | - | - | - |
| Səhm emissiyası | - | - | - | - |
| Keçmiş illərin mənfəətinin kapitala köçürülməsi | - | - | - | - |
| Dividend ödənişi | - | - | - | - |
| Audit düzəlişləri | - | - | - | - |
| Xalis mənfəət | - | - | **2,322** | **2,322** |
| **3/31/2025** | **70,393** | **-** | **7,174** | **77,568** |

14.6. **Baza emissiya prospekti audit olunmuş son maliyyə hesabatından doqquz ay sonra hazırlanarsa bu zaman ən azı yarımillik aralıq audit edilmiş və ya audit edilməmiş maliyyə hesabatı prospektə əlavə edilməlidir. Aralıq maliyyə hesabatı əvvəlki maliyyə ilində eyni dövr üzrə müqayisəli hesabatla birgə tərtib edilməlidir:** Müvafiq məlumat bu Baza Emissiya Prospektinin 14.5-ci bəndində əks olunmuşdur.

14.7. **7 il ərzində hüquqi proseslər barədə məlumat (həllini gözləyən proseslər də daxil olmaqla):** Bitmiş məhkəmə proseslərinin sayı 1318, cari günə davam edən məhkəmə proseslərinin sayı 164-dir.

14.8. **Maliyyə hesabatlarının dərc edilməsindən sonra emitentin maliyyə vəziyyətində baş verən dəyişikliklər barədə məlumat.** Maliyyə hesabatlarının dərc edilməsindən sonra emitentin maliyyə vəziyyətində mühüm dəyişiklik baş verməyib.

## 15. Müqavilələr

15.1. **Emissiya olunan qiymətli kağızlar baxımından qiymətli kağızlar barədə emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edən emitentin əsas fəaliyyəti ilə bağlı olmayan müqavilələr barədə məlumat:** Belə bir hal mövcud deyil.

# Baza emissiya prospekti üzrə istiqrazlar haqqında tələb olunan məlumat

## 16. İstiqrazlar haqqında ümumi məlumat

16.1. **Qiymətli kağızların emissiyasını tənzimləyən qanunvericilik:** Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, ləğv olunmuş Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27 yanvar 2016-cı il tarixli 05 saylı qərarı ilə təsdiq edilmiş "Emissiya prospektinə və informasiya memorandumuna dair tələblər haqqında Qaydalar" və 27 yanvar 2016-cı il tarixli 04 saylı qərarı ilə təsdiq edilmiş "İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında Qaydalar" və digər hüquqi aktlar.

16.2. **Təklif olunan istiqrazların reytinqi (olduqda) və bu reytinqə təsir edən amillər barədə məlumat:** Təklif olunan qiymətli kağızlara hər hansı kredit reytinqi verilməmişdir.

16.3. **İstiqrazların əldə edilməsi üçün məhdudiyyətlər (olduqda):** Hər hansı məhdudiyyətlər nəzərdə tutulmamışdır.

16.4. **İstiqraz üzrə gəlirlərdən mənbədə verginin tutulması barədə məlumat:** Azərbaycan Respublikasının Vergi Məcəlləsinin (bundan sonra – AR Vergi

Məcəlləsi) 123.1-ci maddəsinə əsasən rezident fiziki şəxsə, qeyri-rezident fiziki şəxsin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinə (maliyyə lizinqini həyata keçirən fiziki şəxslər istisna olmaqla) və Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezidentə rezident tərəfindən və ya qeyri-rezidentin daimi nümayəndəliyi tərəfindən, yaxud bu cür nümayəndəliyin adından ödənilən faizlərdən, o cümlədən maliyyə lizinqi əməliyyatları üzrə ödənilən ssuda faizlərindən, gəlir AR Vergi Məcəlləsinin 13.2.16-cı maddəsinə uyğun olaraq Azərbaycan mənbəyindən əldə edilmişdirsə, AR Vergi Məcəlləsinin 102.1.22-ci və 102.1.22-2-ci maddələrində nəzərdə tutulmuş güzəşt nəzərə alınmaqla ödəniş mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur. AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslərin 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində Azərbaycan Respublikasının ərazisində, habelə ölkə hüdudlarından kənarda rezident hüquqi şəxslər tərəfindən kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azad olunmuşdur. İstiqraz üzrə gəlirlərdən mənbədə digər vergilərin tutulması AR Vergi Məcəlləsinə uyğun tənzimlənir. İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi aidiyyəti vergilərlə bağlı dəyişiklər olarsa, ona uyğun vergilər tətbiq ediləcək.

**İstiqraz üzrə gəlirlərdən mənbədən verginin tutulması barədə emitentin öhdəliyi:** İstiqraz üzrə gəlirlərdən mənbədən verginin tutulması üzrə Emitentin öhdəliyi müvafiq müqavilə əsasında ödəniş agenti olan Milli Depozit Mərkəzi ötürülür. Milli Depozit Mərkəzi faiz (kupon) ödənişi günündən bir iş gün əvvələ düşən iş gününün sonunda saat 18.00-da istiqraz sahiblərinin reyestrini formalaşdıracaqdır. Növbəti iş günü (ödəniş günü) həmin reyestrdə adları qeyd olunan investorlara sahib olduqları istiqrazların sayına görə müvafiq faiz (kupon) ödənişinin məbləği hesablanacaqdır. Bu faiz ödənişinin məbləğindən ödəmə mənbəyindən tutulan verginin məbləği çıxıldıqdan sonra xalis faiz ödənişinin məbləği investorların bank hesabına köçürüləcəkdir.

**16.5. Potensial investorların müxtəlif kateqoriyaları barədə məlumat:** Emissiya ediləcək istiqrazlar həm fiziki, həm də hüquqi şəxslər tərəfindən əldə edilə bilər.

**16.6. İstiqrazların növü:** Faizli, təmin edilməmiş, sənədsiz, adlı

**16.7. Təklif edilən qiymətli kağızların sayı və nominal dəyəri (yeni buraxılan və mövcud olan istiqrazlar barədə məlumat ayrı-ayrılıqda göstərilməklə):**

**Tədavüldə olan istiqrazlar:** Ümumi məbləği 5 000 000 (beş milyon) AZN olan, hər birinin nominal dəyəri 100 (bir yüz) AZN olan, 50 000 (əlli min) ədəd faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqraz

**Yeni buraxılan:**
**1-ci buraxılış** – Ümumi məbləği 5 000 000 (beş milyon) ABŞ dolları olan, hər birinin nominal dəyəri 100 (bir yüz) ABŞ dolları olan, 50 000 (əlli min) ədəd faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqraz.

Digər buraxılış(lar) üzrə istiqrazların sayı və nominal dəyəri müvafiq Yekun Şərtlər

əsasında müəyyən ediləcəkdir.

**16.8. İstiqrazların valyutası:** ABŞ dolları

**16.9. İstiqrazlarla təsbit olunan hüquqlar, onların həyata keçirilmə qaydası və onlara dair məhdudiyyətlər:** İstiqraz mülkiyyətçiləri aşağıdakı hüquqlara malikdirlər:

- Emitentin ləğvi, yaxud yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan olunduqda, əmanətçilərin və bankın digər kreditorlarının tələbləri tam ödənildikdən sonra istiqrazların nominal dəyərinin və həmin nominal dəyərə hesablanmış, lakin ödənilməmiş faizləri tələb etmək;
- İstiqrazların tədavül müddəti bitdiyi vaxtda istiqrazın nominal dəyərini emitentdən almaq;
- İstiqrazın nominal dəyərindən illik 7.2 (yeddi tam onda iki) faiz olmaqla (birinci buraxılış üzrə), istiqrazların tədavül müddəti ərzində faiz gəliri almaq;
- İstiqrazla təsdiqlənmiş hüquqları alqı-satqı, bağışlama və s. mülki hüquqi müqavilələr bağlamaq yolu ilə ötürmək;
- İstiqrazları girovla və qanunvericiliklə nəzərdə tutulmuş digər öhdəliklərlə yüklü etmək. Belə yüklü etmə qiymətli kağızlar üzrə depozitar sistemdə qeydiyyata alındığı andan qüvvəyə minir;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

İstiqraz mülkiyyətçiləri öz hüquqlarını bilavasitə özləri və ya qanunvericiliklə nəzərdə tutulmuş qaydada səlahiyyətli nümayəndələri vasitəsi ilə həyata keçirə bilərlər.

**16.10. Faiz və əsas borcun ödənilməsi ilə bağlı iddia müddəti:** Əsas borc və faizin ödənilməsi ilə bağlı iddia müddəti Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 372-384-cü maddələri ilə tənzimlənir.

**16.11. İstiqrazlar üzrə ödənilməli faizlər:** Birinci buraxılış istiqrazlar üzrə illik faiz dərəcəsi 7.2 (yeddi tam onda iki) faiz təşkil edir. Birinci buraxılış istiqrazlar üzrə ödənilməli olan faizlər istiqrazların tədavül müddətində (birinci buraxılışın yerləşdirildiyi tarixdən etibarən 18 (on səkkiz) ay müddətində ildə günlərin sayı 360 ( üç yüz altmış) və bir ayda günlərin sayı 30 gün olaraq götürməklə hər 90 (doxsan) gündən bir ödənilir. Ödəniş tarixi qeyri-iş gününə təsadüf etdikdə, faiz ödənişi növbəti iş günü ödənilir. Ödənişlər bank hesabları vasitəsilə nağdsız qaydada həyata keçirilir. İstiqraz üzrə faizlərin hesablanmasına yerləşdirmə günündən etibarən başlanacaqdır. İstiqrazların nominal dəyəri sonuncu kupon ödənişi ilə birlikdə ödəniləcəkdir.

İkinci buraxılış istiqrazlar üzrə tədavül müddəti Baza Emissiya Prospektinin Yekun Şərtləri №2 ilə müəyyən olunacaq.

**16.12. Faiz dərəcəsi müəyyən olunmadığı halda istiqrazın faiz dərəcəsinin hesablanması üsulu:** Faiz dərəcəsi müəyyən olunmuşdur.

**16.13. Bazarda baş verən hadisələrin istiqrazların baza aktivinə (olduqda) və istiqrazlar üzrə hesablaşmalara mənfi təsiri barədə məlumat. Belə halların tənzimlənməsi qaydaları vəya prosedurları:** İstiqrazlar üzrə baza aktivi mövcud deyil. Bazarda baş verən hadisələr istiqrazlar üzrə hesablaşmalara mənfi təsir göstərməyəcəkdir.

**16.14. Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlarüzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** Təklif edilmiş istiqrazlar təmin edilməmişdir.

**16.15. İstiqrazların geri satın alınmasının şərtləri:** Bu Baza Emissiya Prospekti ilə nəzərdə

tutulmuş istiqraz emissiyası çərçivəsində Emitentin istiqrazları tədavül müddəti ərzində geri satın almaq hüququndan istifadə etməsi nəzərdə tutulmur və bu istiqamətdə hər hansı öhdəliyi mövcud deyil.

**16.16.** **Gəlirlik dərəcəsi və onun hesablanması qaydası:** Birinci buraxılış istiqrazlar üzrə kupon gəlirliliyi illik 7.2 (yeddi tam onda iki) faiz təşkil edir. İstiqrazlar üzrə toplanmış faizlərin hesablanması aşağıdakı düstura uyğunolaraq aparılır:

$$TF = \frac{\left(\frac{N * D * G}{360}\right)}{100}$$

**Burada:**

**TF** – Bir istiqraz üzrə toplanmış faizlər

**N** – Bir istiqrazın nominal dəyəri: 100 (bir yüz) ABŞ dolları

**D** – İstiqrazların illik faiz dərəcəsi: 7.2 (yeddi tam onda iki)

**G** – İstiqrazlar üzrə faiz ödənişi dövrünün müddəti: 90 (doxsan) gün

Beləliklə, hər bir istiqraz üzrə bir faiz dövrü üçün ödəniləcək məbləğ 1.80 (bir ABŞ dolları, səksən sent) ABŞ dolları təşkil edir. Ödəniş tarixi qeyri-iş gününə təsadüf etdikdə, faiz ödənişi növbəti iş günü icra edilir və həmin günlərə faiz hesablanmır.

Növbəti buraxılış(lar) (tranş(lar)) üzrə şərtlər Emitentin müvafiq idarəetmə orqanının qərarı ilə müəyyən olunacaqdır.

**16.17.** **İnvestorları təmsil edən təşkilat barədə (olduqda) məlumat:** Təmsilçi nəzərdə tutulmamışdır.